Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 273 (8000) ÇƏRŞƏNBƏ AXŞAMI, 4 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Gündəmi İLHAM ƏLİYEV müəyyənləşdirir

## Azərbaycan Prezidentinin uğurlu diplomatiyası nəticəsində Ermənistanın təcridi geniş miqyas alır və Yerevanın müttəfiqləri artıq ona qarşı Bakının yanında yer tutur

Azərbaycanın dünya ölkələri ilə ikitərəfli əlaqələrinin genişləndirilməsi xarici siyasətimizin prioritet vəzifələrindən biridir. Ermənistan istisna olmaqla, bu gün bütün dövlətlərlə Azərbaycanın ikitərəfli siyasi, iqtisadi, humanitar və digər sahələr üzrə əlaqələri inkişaf etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin noyabr ayının 18-də və 19-da dost Belarus Respublikasına rəsmi səfərinin nəticələri bu reallığı bir daha təsdiqləmişdir.

### Ermənistan yeni geosiyasi dalanda

Qeyd edək ki, dövlətimizin başçısı indiyədək beş dəfə dost dövlətdə olmuş, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko isə dörd dəfə Bakıya rəsmi səfər etmişdir. Həmin görüşlər zamanı əldə olunan razılaşmalar, müxtəlif sahələr üzrə birgə fəaliyyətə dair imzalanan sənədlər isə həm dövlət başçıları, həm də xalqlarımız arasında mehriban qonşuluq münasibətlərinin bariz göstəricisidir. Təsadüfi deyildir ki, ekspert və siyasətçilər Belarus və Azərbaycan respublikaları arasında siyasi, iqtisadi, mədəni, energetika, müdafiə və s. sahələrdə səmərəli, perspektivli əməkdaşlıq münasibətlərinin qurulmasını və onun strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsini hər iki dövlətin böyük nailiyyəti kimi dəyərləndirirlər.

Gözlənildiyi kimi, Minsk şəhərində keçirilmiş yüksək səviyyəli görüşə və Azərbaycan-Belarus strateji tərəfdaşlığına kəskin və qərəzli reaksiyanı məhz işğalçı Ermənistan vermişdir. O da təsadüfi deyildir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Minsk səfərindən sonra Nikol Paşinyanın simasında rəsmi Yerevanın isterikası isə həm hakimiyyət, həm də Ermənistanın müxalifətyönümlü mətbuatında Yerevanın populist hədə-qorxuları və qeyri-adekvat hərəkətləri faktiki olaraq, Qərb dövlətləri və Rusiya ilə "siyasi bazarlıq" etmək cəhdləri, Avrasiya İqtisadi İttifaqını və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk etmək üçün növbəti bəhanə axtarışı kimi izah olunmaqdadır.

Belə ki, hazırda işğalçı Ermənistanın yeni hakimiyyəti öz sələfləri - cinayətkar R.Köçəryan və S.Sarkisyan rejimlərinə xas olan primitiv təbliğat ənənələrini davam etdirərək daxili və xarici siyasətdə uğursuzluqlarının, sosial-iqtisadi böhranın ölkədə getdikcə dərinləşməsinin, özünütəcrid siyasətinin və bütün qlobal, eləcə də, regional layihələrdən kənarda qalmasının səbəblərini təkcə Azərbaycanın uğurlu xarici siyasətində deyil, onunla müttəfiq olan, haqlı mövqeyini dəstəkləyən Belarus və Qazaxıstan kimi böyük dövlətlərdə də axtarır.

### Belarus, Qazaxıstan və Azərbaycan - ortaq maraqlar, eyni hədəflər

Bu kontekstdə bir xüsusi məqama da diqqət yetirək. Azərbaycanın dövlət başçısının Minsk səfəri ərəfəsində - noyabr ayının 12-də Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycanın Belarusdakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilovu qəbul etmişdir. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa səfərinin proqramı müzakirə olunmuş, eləcə də dövlətlərimiz arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığın perspektivlərindən danışılmışdır.

Həmin söhbətdə A.Lukaşenko tamamilə epizodik olaraq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi postu ilə bağlı Ermənistanın yaratdığı problemlərə və rəsmi Yerevanın qeyri-konstruktiv mövqeyinə də toxunmuşdur. Yeri gəlmişkən, KTMT-də söz sahibi olan Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev də təşkilatın baş katibi postuna növbəti təyinatın Ermənistan nümayəndəsinə verilməsini məqsədəuyğun hesab etməmişdir. Çünki Ermənistanın bu posta dair öz planları vardır. Belə ki, sabiq baş katib Yuri Xaçaturov cinayət məsuliyyətinə cəlb olunduqdan sonra rəsmi Yerevan onu keçmiş müdafiə naziri Vaqarşak Arutyunyan ilə əvəz etmək arzusunda idi.

Belarus, Qazaxıstan və Azərbaycan arasında əlaqələrin hərtərəfli inkişafından, ortaq maraqların formalaşmasından, Ermənistanın isə bir dövlət olaraq həm MDB məkanında, həm də onun sərhədlərindən kənarda sürətlə nüfuzdan düşməsindən, bütün inteqrasiya proseslərindən kənarda qalmasından xoflanan və bunu hakimiyyəti üçün ciddi təhdid kimi dəyərləndirən Nikol Paşinyan dərhal özünəməxsus ekssentrik reaksiya vermişdir.

Ardı 3-cü səh.

# "Bakutel" sərgisi beynəlxalq əməkdaşlığın genişlənməsi işinə töhfəsini verəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskov Bakıda keçirilən XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində iştirak etmək üçün dəvətə görə minnətdarlığını bildirdi. O, bu tədbirə paralel olaraq Bakıda Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin görüşü barədə məlumat verdi. Qonaq qeyd etdi ki, bu görüş və "Bakutel" sərgisi beynəlxalq əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcək. Konstantin Noskov, eyni zamanda, Rusiyanın və Azərbaycanın müvafiq nazirlikləri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, artıq iki ölkənin poçt xidmətlərinin səmərəli qarşılıqlı fəaliyyət göstərdiklərini bildirdi və bunun Çindən Azərbaycan vasitəsilə Rusiyaya böyük həcmdə elektron ticarət məhsullarının göndərilməsi üçün imkan yaratdığını dedi. Eyni zamanda, qonaq Azərbaycanla Rusiya mobil rabitə operatorları arasında əməkdaşlıqla bağlı danışıqların aparıldığını dedi.

Prezident İlham Əliyev Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovun Bakıda keçirilən XXIV "Bakutel" sərgisində iştirakından məmnunluğunu ifadə etdi, eyni zamanda, Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin toplantısının beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlət başçısı Bakıda ənənəvi olaraq keçirilən "Bakutel" tədbirinə beynəlxalq marağın və iştirakçı ölkələrin sayının artdığını qeyd edərək, bu tədbirin telekommunikasiya və texnologiyalar sahəsində əldə olunmuş nailiyyətlərlə yaxından tanışlıq və təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən rabitə və kütləvi kommunikasiyalar sahəsində uğurla inkişaf etdiyi bildirildi və Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirinin səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

Görüşdə iki ölkənin müvafiq qurumları arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gələcəkdə qonşu ölkələrlə birgə layihələrin həyata keçirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Xəzər rayonunun Buzovna-Mərdəkan-Qala avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əlli beş min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Buzovna-Mərdəkan-Qala avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon (beş milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2018-ci il*

# Regionlar yenə irəli çıxır

## Ölkədə hər yeni açılan dörd iş yerindən üçü bölgələrin payına düşür

Artıq neçə ildir ölkəmizdə, xüsusən də regionlarda yeni istehsal və xidmət sahələrinin açılmasına, müasir obyektlərin istifadəyə verilməsinə, aqrar sektorda əməktutumlu sahələrin dirçəlməsinə xüsusi diqqət yetirilir və ümumiyyətlə, bu sahə hökumətin prioritet fəaliyyət istiqaməti olaraq qalır.

Etiraf edək ki, regionların sosial-iqtisadi inkişafını təmin edən dövlət proqramlarının icrasının da bu işdə payı böyükdür. O mənada ki, dövlət proqramlarının icrası, bu sıradan qeyri-neft sektorunun inkişafı məşğul əhalinin sayının artması və iqtisadi inkişafın coğrafiyasının genişlənməsi ilə müşayiət edilib.

Ardı 5-ci səh.



# Aqrar sektorun əsas hədəflərindən biri

## Toxum idxalından azad olmaq üçün ölkəmizin əlverişli iqlim şəraiti və zəngin bitki genofondu var



Kənd təsərrüfatı ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından əsas strateji sahələrdəndir. Ərzaq təminatı isə hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir. Əsas ərzaq məhsullarına olan tələbatın ödənilməsi isə davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Bu baxımdam Prezident İlham Əliyevin müxtəlif dövrlərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair təsdiqlədiyi dövlət proqramlarının mühüm əhəmiyyəti var.

Dövlət başçısının 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" toxumçuluğun inkişafında mühüm rol oynayır. Həmin sənədin əsas hədəfi toxum və ting istehsalının təşviq edilməsi, bu sahədə keyfiyyətə nəzarət sisteminin yaradılması və sertifikatlaşdırma mexanizminin, toxumçuluq laboratoriyalarının fəaliyyətinin təkmilləşdirilməsidir. Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru, biologiya üzrə fəlsəfə doktoru Cavanşir Təlai deyir ki, dövlət toxum bazarını qanunvericilik yolu ilə tənzimləməklə toxum istehsalçılarının və istehlakçıların marağını qoruyur: "Bu sahədə ölkəmizin potensialı böyükdür. Bizim daxili bazarın təmin edilməsi, eləcə də xarici bazara ixrac etmək üçün taxıl, kartof, tərəvəz və digər kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində böyük potensialımız var. Azərbaycan ərazisinin 54,9 faizini və ya 4,75 milyon hektarını kənd təsərrüfatına yararlı torpaqlar təşkil edir. Mövcud əkin sahələrinin 1,4 milyon hektardan çoxu suvarılan torpaqlardır.

Ardı 4-cü səh.

# Azərbaycanın 2019-cu il dövlət büdcəsi Ermənistandan 4,5 dəfə çoxdur

## İşğalçı ölkənin çöküşünün daha sürətli xarakter alacağı proqnozlaşdırılır

Sosial-iqtisadi sahədə böyük problemlər yaşayan Ermənistanda vəziyyətin getdikcə daha da pisləşməsi müşahidə olunur. Bu ölkədə hakimiyyət dəyişikliyinə rəğmən, qeyd olunan istiqamətlər üzrə müsbətə doğru dəyişən nəsə yoxdur.

Əksinə, işğalçı ölkənin çöküşünün daha sürətli xarakter alacağı proqnozlaşdırılır. Bunu Ermənistanın gələn il dövlət büdcəsindən də görmək olar.

Gələn il üçün nəzərdə tutulan layihədə büdcənin gəlirləri 1,5 trilyon dram, xərcləri isə 1,6 trilyon dram və ya 3,3 milyard ABŞ dolları göstərilir.

Qeyd edək ki, gələn il üçün Azərbaycanın dövlət büdcəsinin gəlirləri 23 milyard 168 milyon manat, xərcləri isə 25 milyard 190 milyon manat (14 milyard 847 milyon ABŞ dolları) proqnozlaşdırılıb. Bu isə onu göstərir ki, Ermənistanın dövlət büdcəsi Azərbaycandan təxminən 4,5 dəfə azdır.

Məsələ bundadır ki, bu fonda Ermənistan büdcəsində sosial ödənişlərdə, maaşlarda hansısa artım yoxdur. Bununla bağlı ekspert Babken Tunyan qeyd edir ki, ölkədə "məxməri inqilab" da hansısa nailiyyətə nail olmadı. O qeyd edir ki, Ermənistanda təqaüd və maaşlar artmayacaq.

Ardı 3-cü səh.

# CISCO şirkəti ölkəmizlə uğurlu əlaqə yaradıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısı CISCO şirkətinin uzun illər Azərbaycan hökuməti ilə uğurlu əməkdaşlıq həyata keçirməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev CISCO şirkətinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən nəqliyyat sahəsində həyata keçirdiyi layihələrə toxunaraq bu sahənin ölkəmizdə prioritet istiqamətlərdən biri olduğunu vurğuladı. Dövlət başçısı regional əməkdaşlıq üçün yeni infrastrukturun yaradıldığını nəzərə alaraq digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix Azərbaycan Prezidenti ilə əvvəlki görüşünü məmnunluqla xatırlayaraq şirkətin ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi. Ölkəmizə səfərindən xoş hislər keçirdiyini deyən qonaq səfərinin məqsədinin əməkdaşlığın perspektivlərini müzakirə etməkdən ibarət olduğunu dedi və bu əməkdaşlığın "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasına uyğun şəkildə həyata keçirilməsinin əhəmiyyətini qeyd etdi.

Görüşdə XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisinin əhəmiyyətinə toxunularaq bu tədbirin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.

# Ədliyyə Nazirliyinin kollegiya iclası keçirilib





**Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən kollegiya iclasında Azərbaycan Prezidentinin 2018-ci il 23 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"dan irəli gələn ədliyyə orqanlarının vəzifələri müzakirə edilib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda ümummilli lider Heydər Əliyev tərəfindən dövlət qulluğu sahəsində aparılan islahatlar nəticəsində respublikamızda özünəməxsus dövlət qulluğu sisteminin formalaşdığı, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş yeni strategiyanın dövlət qulluğu sahəsində islahatların yeni mərhələsinin əsasını qoyduğu qeyd olunub.

Kollegiyada bu mühüm sənədin dövlət qulluğunun inkişafında müstəsna əhəmiyyəti vurğulanıb, son illər dövlət qulluğunun xüsusi növü olan ədliyyə qulluğunun təkmilləşdirilməsi, ədliyyə orqanlarının hazırlıqlı, mənəvi cəhətdən saf kadrlarla komplektləşdirilməsi, bu zaman dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin işlə təminatı, qulluğa qəbul prosedurlarının xeyli sadələşdirilməsi, ədliyyənin müxtəlif sahələrinə şəffaflıq əsasında işə qəbulla bağlı mütəmadi müsabiqə və müsahibələrin keçirilməsi vurğulanıb. Strategiyanın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planı ilə Ədliyyə Nazirliyinin üzərinə düşən çoxsaylı vəzifələrin mütəşəkkil, vaxtında və dürüst yerinə yetirilməsi, o cümlədən dövlət qulluğunda kadr siyasətinin inkişafı, dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi, informasiya təminatının və elektron dövlət qulluğunun inkişaf etdirilməsi, bu sahəyə dair qanunvericiliyin təkmilləşdirilməsi və icrasına nəzarət və s. məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib, konkret tədbirlər müəyyən edilib.

Eyni zamanda, iclasda dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il noyabrın 15-də "Notariat haqqında" qanuna edilmiş əsaslı dəyişikliklərin əhaliyə keyfiyyətli hüquqi xidmətlərin göstərilməsində mühüm rol oynayan notariat fəaliyyətinin səmərəli təşkilində və vətəndaşların əlçatanlığı üçün yeni imkanların yaradılmasında müstəsna əhəmiyyəti qeyd olunub.

Bildirilib ki, notariat sahəsində ardıcıl islahatlar davam etdirilərək notariat orqanlarının səlahiyyətləri genişləndirilir, beynəlxalq təcrübəyə uyğun xüsusi notariat institutu yaradılaraq geniş tətbiq olunur, həmçinin notariat kontorlarını vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi istifadəyə verilib ki, bununla da notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib. Bu sahədə islahatlara və yeniliklərə beynəlxalq maraq artaraq Azərbaycanın nailiyyətləri qabaqcıl kimi qiymətləndirilir, bir çox dövlətlər müsbət təcrübəmizdən bəhrələnirlər.

Yeni qanun notariat fəaliyyətinin daha da təkmilləşdirilməsinə xidmət etməklə bu sahədə institusional tədbirlərin, o cümlədən notariat ofislərində idarəçiliyin təkmilləşdirilməsi məqsədilə notariusun köməkçisi institutunun, həmçinin notariusların peşə hazırlığının artırılması üçün təlimlərin keçirilməsi, notariat təcrübəsinin formalaşması və bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsi, xarici təcrübənin öyrənilməsi məqsədilə Notariat Palatasının yaradılmasını nəzərdə tutur. Həmçinin notariat xidmətlərinin məsafədən videoəlaqə vasitəsilə həyata keçirilməsi, bu məqsədlə sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılacaq xüsusi ədliyyə köşkləri vasitəsilə ilk dəfə olaraq notariat sənədlərinin tərtib olunaraq əldə edilməsi mümkün olacaq. Bundan başqa, səyyar elektron xidmətlər göstərmək üçün xüsusi çantalar hazırlanıb.

Kollegiyada qanunvericiliyə edilmiş dəyişikliklərin və qanunun tətbiqi barədə dövlət başçısının 2018-ci il 20 noyabr tarixli fərmanının dönmədən və dürüst icrası ilə bağlı tapşırıqlar verilib.

Bununla yanaşı, beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətin təkmilləşdirilməsi, ölkəmizin sülhsevər siyasətinin hər zaman aşılanması, beynəlxalq tədbirlərdə və görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan həqiqətlərinin geniş ictimaiyyətin diqqətinə çatdırılması, xarici siyasət sahəsində əlaqələndirmə işinin daha mükəmməl həyata keçirilməsi ilə bağlı əlavə göstərişlər verilib.

Eyni zamanda, ədliyyə orqanlarında şəffaflığın və aşkarlığın təmin olunması, ictimaiyyətlə əlaqələrin gücləndirilməsi üçün xeyli işin görüldüyü, o cümlədən nazirliyin internet səhifəsinin (www.justice.gov.az) interaktiv rejimdə fəaliyyət göstərməsi bildirilib. Saytın Nazirlər Kabinetinin 2012-ci il 4 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər"ə uyğun olaraq müasir dizaynda hazırlanmış, ədliyyəyə əlçatanlığı asanlaşdırmaq məqsədilə funksionallığı artırılmaqla daha geniş məlumatları əks etdirən yeni versiyasının təqdimatı keçirilərək onun tətbiqi ilə bağlı tapşırıqlar verilib.

Kollegiyada dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli sərəncamının icrası ilə bağlı görülən işlər də müzakirə edilib. Yeni qəbul olunan qanunvericilik aktlarının azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azalmasına, alternativ cəzalara daha çox üstünlük verilməsinə imkan yaratdığı vurğulanıb. Həmçinin probasiya xidmətinin, elektron nəzarət vasitələrinin, ictimai işlər və digər alternativ cəzaların icrası sahəsində fəaliyyətin ictimai əhəmiyyəti nəzərə alınaraq xüsusi videoçarxların, televiziya verilişlərinin hazırlandığı və ictimaiyyətin geniş maarifləndirildiyi bildirilib.

İclasda azadlıqdan məhrumetməyə alternativ cəzaların mükəmməl icrası ilə bağlı tapşırıqlar verilib, o cümlədən müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərə probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı yeni qaydalar təsdiqlənib.

Bununla yanaşı, ədliyyə fəaliyyətini tənzimləyən digər normativ hüquqi akt layihələri baxılaraq qəbul olunub, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Bakıda fiziki məhdudiyyətli şəxslərin X Ümumrespublika Yaradıcılıq Sərgi-Yarmarkası keçirilir

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib









**Dekabrın 3-də Beynəlxalq Əlillər Günü ilə əlaqədar Bakı şəhərində, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunda fiziki məhdudiyyətli şəxslərin X Ümumrespublika Yaradıcılıq Sərgi-Yarmarkası işə başlayıb. Tədbirin təşkilatçısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir.**





AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib, burada nümayiş olunan əl işlərinə baxıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sərgi barədə ətraflı məlumat verib. Bildirilib ki, üç gün davam edəcək tədbirdə ölkəmizin müxtəlif bölgələrindən fiziki məhdudiyyətli 250 nəfərdən çox şəxsin hörmə, rəsm, toxuma, xalçaçılıq, dulusçuluq-keramika məmulatları, ağac üzərində oyma, müxtəlif incəsənət və məişət nümunələri, bədii tikmələrdən ibarət 1500-dən çox əl işi nümayiş olunur. Sərgidə, eyni zamanda, əl işlərinin satışı təşkil edilib. Bu da əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların yaradıcı əməyinin maddi baxımdan stimullaşdırılması məqsədi daşıyır.

Leyla Əliyeva əl işlərinin müəllifləri olan fiziki məhdudiyyətli şəxslərlə və sağlamlıq imkanları məhdud uşaqlarla görüşüb, onlarla səmimi söhbət edib.

S.Babayev əlilliyi olan insanların istedad və bacarıqlarının cəmiyyətə tanıdılması və dəstəklənməsi, onların yaradıcılıq potensiallarına ictimaiyyətin diqqətinin artırılması məqsədilə təşkil olunan belə tədbirlərə hələ 1990-cı illərdə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə başlandığını vurğulayıb. O, 1998-ci il noyabrın 30-da əlilliyi olan şəxslərin ilk ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsinin yekun tədbirində ulu öndərin dediyi bu sözləri xatırladıb: "Hər bir insanın cəmiyyətdə özünün daxilində olan imkanlardan istifadə etməsi üçün, öz istedadını nümayiş etdirməsi üçün ona şərait yaratmalıyıq". Bu, ötən dövrdə dövlətimizin sosial siyasətində öz əməli təsdiqini tapıb. Prezident İlham Əliyevin xüsusi qayğısı ümumən fiziki məhdudiyyətli insanların sosial təminatlarının gücləndirilməsində, onların reabilitasiya və cəmiyyətə inteqrasiya imkanlarının genişləndirilməsində əhəmiyyətli addımların atılmasına imkan yaradıb.

Beynəlxalq Əlillər Gününün cari ildəki mövzusunun "Əlilliyi olan şəxslərin imkanlarının genişləndirilməsi, inklüzivliyin və bərabərliyin təmin edilməsi" olduğunu qeyd edən nazir bu gün əlilliyi olan insanların reabilitasiyası, öz fiziki məhdudiyyətlərinə qalib gələrək daim özlərinə güclü inam hissi ilə ictimai-mədəni həyatda fəal iştirak etmələri üçün çoxşaxəli işlər aparıldığını deyib. O, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mühüm sosial əhəmiyyət kəsb edən nəcib və xoşməramlı layihə və təşəbbüslərinin digər həssas qruplarla yanaşı, əlilliyi olan insanları da əhatə etdiyini vurğulayıb. S.Babayev Heydər Əliyev Fondunun fiziki məhdudiyyətli insanların sosial reabilitasiyası işlərinə dəstək tədbirlərinin əhəmiyyətini diqqətə çatdırıb.

Nazir BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına uyğun olaraq ölkəmizdə müvafiq qanunvericiliyin təkmilləşdirildiyini qeyd edib. Bu məqsədlə yeni qəbul olunan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun fiziki məhdudiyyətli insanlarla bağlı mütərəqqi dünya təcrübəsindən irəli gələn yanaşmaları əks etdirdiyini bildirib.

Tədbirdə çıxış edən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai deyib ki, təmsil etdiyi qurum tərəfindən Beynəlxalq Əlillər Gününün təsis edilməsində əsas məqsəd bu kateqoriyadan olan insanlara cəmiyyətin diqqətinin artırılmasıdır. O, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına qoşulan Azərbaycanda bu sənəddən irəli gələn öhdəliklərin icrası, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının artırılması üçün aparılan işlərin təqdirəlayiq olduğunu qeyd edib.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kafedra müdiri, xalçaçı-rəssam, əl işlərinin qiymətləndirilməsi üzrə münsiflər heyətinin sədri Məmmədhüseyn Hüseynov fiziki məhdudiyyətli şəxslərin hər birinin müsabiqədə qələbəyə layiq olduğunu, qalibləri müəyyənləşdirərkən çətinlik çəkdiklərini bildirib.

Sonra xüsusi bacarıqları ilə fərqlənən iştirakçılara mükafatlar təqdim edilib.

Sərgi-yarmarka çərçivəsində, həmçinin nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə-Reabilitasiya Mərkəzinin və uşaqlar üçün sosial xidmət müəssisələrinin sakinlərindən ibarət rəqs qruplarının çıxışı olub.

# Bakıda Beynəlxalq Gimnastika Federasiyasının 82-ci Konqresinin açılışı olub

**Dekabrın 2-də Bakıda Beynəlxalq Gimnastika Federasiyasının (FIG) 82-ci Konqresinin açılışı olub. AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov tədbirin əhəmiyyətini yüksək qiymətləndirib.**





Nazir bildirib ki, ölkəmiz gimnastika üzrə mötəbər yarışlara yüksək səviyyədə evsahibliyi edib. Azərbaycan dünyada gimnastika mərkəzlərindən birinə çevrilib. Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsi idmanın bu növünün ölkəmizdə sürətli inkişafına təkan verib. Respublikamızda güclü idman infrastrukturu yaradılıb, gimnastikanın kütləviliyinə və populyarlığına nail olunub. Bakının evsahibliyi etdiyi konqres innovasiyalar üçün platforma olacaq.

Konqresdə Azərbaycan Gimnastika Federasiyasını baş katib Nurlana Məmmədzadə, bədii gimnastika üzrə Azərbaycan millisinin baş məşqçisi Mariana Vasileva və beynəlxalq əlaqələr üzrə menecer Mehman Əliyev təmsil edirlər.

FIG-nin Nizamnaməsinə əsasən, ən yüksək ali orqan sayılan konqresdə 115-dən çox ölkədən 300-ə yaxın nümayəndə iştirak edir. Konqresdə FIG-nin prezidenti və texniki əlaqələndiricisinin, həmçinin ali qurumun hər bir gimnastika növü üzrə Texniki komitələrinin prezidentlərinin hesabatları dinləniləcək. Daha sonra Beynəlxalq Gimnastika Federasiyasına daxil olan qitə ittifaqlarının rəhbərləri hesabatla çıxış edəcək, habelə qurumun rüblük maliyyə planı təsdiqlənəcək. Bundan başqa, FIG-ə yeni üzvlərin qəbulu, həmçinin hər hansı bir federasiyanın qurumdan xaric edilməsi məsələsi müzakirə ediləcək və növbəti konqresin keçirilmə yeri müəyyən olunacaq.

FIG-nin rəhbər orqanlarının və bu quruma üzv federasiyaların konqresdən əvvəl irəli sürdükləri müxtəlif təkliflər iclasın gedişində müzakirə ediləcək. Həmçinin beynəlxalq qurumun qaydalarına, Nizamnaməsinə edilə biləcək dəyişikliklərə və müxtəlif mükafatların verilməsinə baxılacaq.

Konqresdən əvvəl, noyabrın 29-da Bakıda FIG-nin Prezident Komissiyasının iclası, noyabrın 30-dan dekabrın 1-dək isə ali gimnastika qurumunun İcraiyyə komitəsinin iclasları keçirilib.

Konqres işini dekabrın 3-də yekunlaşdıracaq.

# *Altay HƏSƏNOV:* "Gələn il dünya gimnastikasının ürəyi Bakıda döyünəcək"

**Son on ildir ölkəmizdə gimnastika idman növləri sürətlə inkişaf edir. Azərbaycan Gimnastika Federasiyası (AGF) mötəbər tədbirlərə uğurla evsahibliyi etməklə böyük təcrübə toplayıb. Hazırda ölkəmiz Beynəlxalq Gimnastika Federasiyasının (FIG) 82-ci Konqresinə evsahibliyi edir.**



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov dekabrın 3-də FIG-nin Bakıda təşkil olunan 82-ci Konqresi zamanı jurnalistlərə müsahibəsində deyib.

Ötən il ölkəmizdə FIG Şurasının iclasının təşkil olunduğunu xatırladan A.Həsənov bildirib: "Qonaqların dediklərinə görə, konqres uğurla keçirilir və AGF bütün məsələləri yüksək səviyyədə təşkil edib. İnanıram ki, konqresdə qəbul olunmuş qərarlar dünyada gimnastikanın inkişafına böyük təkan verəcək. Bakıda belə tədbirlərin təşkili bizi çox sevindirir. Gələn il ölkəmiz bədii gimnastika üzrə dünya çempionatına, digər növlər üzrə Avropa birinciliklərinə və dünya kuboku yarışlarına evsahibliyi edəcək. AGF-nin qrafiki çox dolğundur. Ümid edirəm ki, həmişə olduğu kimi, bu məsələlərin də öhdəsindən layiqincə gələcəyik. Gələn il dünya gimnastikasının ürəyi Bakıda döyünəcək. Azərbaycan artıq gimnastikada öz sözünü deyib. Bizim təşkilatçılığımıza yüksək səviyyədə qiymət verirlər. Təsadüfi deyil ki, AGF ötən il də FIG tərəfindən dünyada ən yaxşı federasiyalar arasında yer almışdı".

Federasiyanın vitse-prezidenti vurğulayıb ki, on il bundan əvvəl Azərbaycanda gimnastika növləri arasında ən çox inkişaf edən bədii gimnastika idi və biz buna böyük önəm verirdik. "Bakı 2015" ilk Avropa Oyunları ərəfəsində digər növlərin də inkişaf etdirilməsi barədə qərar qəbul olundu. Bir az çətinliklərimiz var, kadr ehtiyatı azdır. Ancaq biz bu istiqamətdə işlərimizi davam etdiririk. İnanıram ki, bütün bunların öhdəsindən gələcəyik. Nəticələrimiz hələ qabaqdadır.

# "Əlillik qüsur deyil" kitab-albomunun təqdimatı olub



Dekabrın 3-də Beynəlxalq Əlillər Günü münasibətilə Azərbaycan Dövlət Musiqili Teatrının foyesində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən nəşr edilən "Əlillik qüsur deyil" kitab-albomunun və əlilliyi olan şəxslərin əl işlərindən ibarət hədiyyələrin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

"Əlillik qüsur deyil" kitab-albomunda ümummilli lider Heydər Əliyevin fiziki məhdudiyyətli insanlara, onların sosial müdafiəsi və reabilitasiyasına diqqət və qayğısından, əlilliyi olan şəxslərin sosial təminatı, reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində Prezident İlham Əliyevin tapşırığına əsasən atılan addımlardan, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə həyata keçirilən nəcib və xoşməramlı layihələrdən bəhs olunur. Nəşrdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın sosial xidmət müəssisələrinin sakinlərinə qayğısı, onlarla keçirdiyi görüşlər də əksini tapıb.

Kitab-albomda incəsənətin müxtəlif növləri ilə məşğul olan fiziki məhdudiyyətli 60-a yaxın şəxs barədə məlumatlar və onların yaradıcılıq nümunələri də yer alıb. Nəşrə, həmçinin Azərbaycanda yeni yaradılmış Boccia İdman Federasiyası və bu idman növünə maraq göstərən fiziki məhdudiyyətli insanlar, onların uğurları, ilk inklüziv ƏSA teatrı, onun yaradıcı heyəti, hazırladıqları tamaşalar barədə məlumatlar daxil edilib. 278 səhifəlik kitab-albomdakı mətnlər həm Azərbaycan, həm də ingilis dilində təqdim olunur.

# Azərbaycanın 2019-cu il dövlət büdcəsi Ermənistandan 4,5 dəfə çoxdur

*Əvvəli 1-ci səh.*

Onun sözlərinə görə, bu gün əgər ölkədəki pensiyaçıların təqaüdləri 100 dram artırılarsa, bu, dövlət büdcəsinə çox böyük məbləğə başa gələ bilər: "Təbii ki, belə bir addımın atılmasının ölkə əhalisinin rifahına elə də böyük bir təsir göstərməyəcəyini nəzərə alsaq, bu halda belə bir sual yarana bilər: hökumət tərəfindən belə bir addım atılmasına dəyərmi? Əslində, pensiyaçıların təqaüdlərinin 1000 dram artırılması ölkədəki bugünkü qiymət artımı ilə müqayisədə heç nədir, yəni belə bir addımın atılması xalqın rifah səviyyəsinin yüksəlməsinə heç bir təsir göstərə bilməz. Əslində, bu seçimi Nazirlər Kabineti etməlidir. Bu gün Ermənistanda insanlar erkən seçkilərdən sonra "məxməri inqilab"ın iqtisadi təsirləri haqqında tez-tez danışmağa başlayıblar. Əgər, doğrudan da, deyildiyi kimi, ölkədə vergi gəlirləri artırılacağı təqdirdə pensiya və maaşların səviyyəsində artım olmayacaqsa, bunun əhali arasında hansı effekt verəcəyini də anlamaq lazımdır".

Bu gün pensiyaların Ermənistan əhalisinin ən həssas yeri olduğunu bildirən Tunyan onların ərzaq xərclərinin böyük bir hissəsinə sahib olduqlarını xatırladır.

Ermənistan parlamentinin 2019-cu il üçün qəbul etdiyi dövlət büdcəsi layihəsində respublikada minimum əməkhaqqı və əmək pensiyalarının eyni səviyyədə qalacağı göstərilir. Bununla yanaşı, əmək pensiyalarının hesablanmasında da heç bir dəyişiklik edilməyəcək. Bu gün Ermənistanda pensiyaların miqdarı 16 min dram civarındadır.

Maraqlıdır ki, Ermənistan parlamentinin vitse-spikeri, Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov yeni hökumətin vergi artımı hesabına ölkədəki pensiya və maaşların yüksəldiləcəyi barədə dediklərinin populizmdən başqa bir şey olmadığını bildirib.

Ermənistanda gələn ilin büdcəsində hərbi xərclərin artırılması nəzərdə tutulur ki, bunun da reallaşması böyük sual altındadır. Qeyd edək ki, Ermənistan 2019-cu ildə hərbi büdcəsini 647 milyon dollara qədər artırmaq niyyətinə düşüb. İşğalçı ölkənin müdafiə büdcəsinin kəskin artımı ilk dəfə 2018-ci ildə olub. Həmin vaxt hərbi büdcə 2017-ci ildəkinə nisbətən 17,6 faiz artaraq 518 milyon dollar təşkil edib. Gələn il daha çox artım gözlənilir və bu göstərici təxminən 647 milyon dollar olacaq.

Xatırladaq ki, Azərbaycanın 2019-cu il üçün hərbi büdcəsi 4 milyard 589,6 milyon manat (2 milyard 705 milyon ABŞ dolları) təşkil edir. Bu isə Ermənistanın hərbi büdcəsindən təxminən 4 dəfə çoxdur.

İşğalçı ölkədə hərbi büdcənin bu cür artırılması ümumi daxili məhsulda hissediləcək şəkildə əks olunub. Belə ki, bu göstərici cari ildə 3,8 faizə yaxın olub, gələn il isə 4,5 faizə çatacaq. Hərbi büdcənin belə sürətli artımı, əlbəttə ki, Ermənistan üçün ciddi çətinliklər yaradacaq. Bu rəqəmin ümumi daxili məhsulda nisbətinin 5-6 faizdən çox olması ölkə iqtisadiyyatı üçün kifayət qədər ciddi təhlükədir.

Amma bu artım Ermənistanın Azərbaycan ilə ayaqlaşa biləcəyi demək deyil. Əksinə, hərbi büdcənin belə artımı ölkə iqtisadiyyatının daha böyük problemlərlə üzləşməsi deməkdir. Aydındır ki, hətta indiki artım nəzərə alınmaqla Ermənistanın hərbi büdcəsinin Azərbaycandakına çatmasına hələ çox var. Bu baxımdan Ermənistanın hərbi büdcəsini artırması onun çöküşünü daha da sürətləndirəcək. Belə ki, Ermənistan həmin vəsaitə ancaq sosial sahələrə ayrılan xərcləri azaltmaqla nail ola bilər. Əslində, artıq müəyyən azalmalar özünü göstərir. Məsələn, Ermənistan prezidenti Armen Sarkisyanın aparatı "Airbus" təyyarəsindən məhrum edilib, dövlət başçısının xərcləri 741 milyon dram və ya 1,5 milyon dollar azaldılıb. Ermənistan Prezidenti Aparatının rəhbəri Emil Tarasyanın sözlərinə görə, təyyarədən imtina 200 milyon dram qənaət etməyə imkan yaradacaq. Tarasyan həmçinin deyib ki, 2019-cu il üçün prezidentin xərcləri 1,183 milyard dram və ya 2,4 milyon dollar təşkil edəcək. Bu da 2018-ci ildəki analoji göstəricinin 61,5 faizini təşkil edir. Aparat rəhbəri gələn il Ermənistanda ciddi ixtisarların olacağını, maaşlar üçün nəzərdə tutulan xərclərin azaldılacağını qeyd edib.

Bütün bunlar isə işğalçı ölkədə vəziyyətin daha da ağırlaşdığını göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Gündəmi İLHAM ƏLİYEV müəyyənləşdirir

## Azərbaycan Prezidentinin uğurlu diplomatiyası nəticəsində Ermənistanın təcridi geniş miqyas alır və Yerevanın müttəfiqləri artıq ona qarşı Bakının yanında yer tutur

*Əvvəli 1-ci səh.*

O, Belarus və Qazaxıstan prezidentlərini "Ermənistanı təkləməkdə", erməniləri "kiçik xalq" kimi tanımaqda ittiham etmiş, hətta onlara hədə-qorxu gəlməkdən, mövqeləri ilə bağlı "ciddi izahat tələb edəcəyini" bildirməkdən çəkinməmişdir. Bununla da böyük siyasətin davranış, etika qaydalarından tam xəbərsiz olduğunu göstərmişdir. Üstəlik, Yerevanda keçirdiyi mətbuat konfransında çılğınlıqla həmin dövlətləri "Ermənistanın maraqları ilə hesablaşmağa məcbur edəcəyini" bildirmişdir.

### İlham Əliyevdən dəqiq və müdrik yanaşma

Belarus hakimiyyəti, öz növbəsində, N.Paşinyanın əhəmiyyətsiz isterikasına yalnız Xarici İşlər Nazirliyinin mətbuat katibi Anatoli Qlazın təmkinli, lakonik və nəsihət dolu cavabı ilə reaksiya verməklə kifayətlənmişdir. A.Qlaz "böyük siyasətdə küçə demokratiyası qaydalarının yolverilməzliyini" və "beynəlxalq münasibətlərdə dəqiq protokol normalarının və etiket qaydalarının mövcudluğunu" bir daha meydan qəhrəmanı Nikol Paşinyanın diqqətinə çatdırmış və onun dahilik iddiasına, "cəzalandırmaq və ya əfv etmək səlahiyyətinə malik olan beynəlxalq prokuror" rolunu oynamağa çalışdığını bildirmişdir.

Noyabr ayının 14-də isə Azərbaycan Prezidenti İlham Əliyev müvafiq cavab addımı ataraq Belarus Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul etmiş, görüş zamanı da protokola əsasən qarşıdakı səfərin proqramı və gözlənilən nəticələr müzakirə olunmuşdur. Söhbət zamanı Azərbaycanın dövlət başçısı dövlətlərarası münasibətlərdə belə görüşlərin təşkilinə nadir hallarda rast gəlindiyini vurğulayaraq, faktiki olaraq, bunu hər iki dövlət arasında əməkdaşlığın, qarşılıqlı hörmətin və etimadın yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirmişdir.

Prezident İlham Əliyev onu da bildirmişdir ki, belarus xalqı dövlət müstəqilliyini əldə etdikdən sonra sürətli inkişaf yolu keçmiş, güclü iqtisadiyyata, kənd təsərrüfatına, keyfiyyətli sosial müdafiə sisteminə malik olan qüdrətli dövlətə çevrilmişdir. Ölkə başçısı patoloji natamamlıq kompleksindən əziyyət çəkən Ermənistanın "psixi tutmalar"ını, rəsmi Minskə qarşı açıq qərəzli mövqeyinin səbəblərini məhz Belarusun davamlı inkişaf tendensiyasına həsəd hissi və bədxahlığı, Azərbaycanın bu dövlətlə əlaqələrinin bütün sahələrdə, o cümlədən hərbi-texniki əməkdaşlıq istiqamətində getdikcə genişlənməsindən ciddi narahatlığı ilə əlaqələndirmişdir.

Ermənistan başçısının Belarus və Qazaxıstanın qətiyyətli mövqeyinə kobud reaksiyasını "nəzakətsiz davranış" adlandıran Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan KTMT-nin üzvü olmasa da, təşkilatın baş katibi postuna hansı dövlətin nümayəndəsinin təyin olunmasına biganə qala bilməz və onun öz tərəfdaşları, dostları ilə həmin məsələni müzakirə etməsi tamamilə təbiidir. Çünki bu təyinata yenidən iddialı olan Ermənistan Azərbaycan ərazilərinin bir hissəsini işğal etmişdir. Ermənistanın KTMT-də problemlərin olmasına dair iddialarına aydınlıq gətirən Prezident həqiqətən də təşkilatın hazırda problemlər yaşadığını və onların ilk növbədə Ermənistanla bağlı olduğunu vurğulamışdır. Səfir Gennadi Axramoviç isə öz dövlətinin Azərbaycana münasibətini belə ifadə etmişdir: "Biz həmişə, o cümlədən beynəlxalq formatlarda azərbaycanlı dostlarımızın dəstəyinə arxayınıq. Eyni zamanda BMT, ATƏT və Avropa Şurası kimi beynəlxalq platformalarda Azərbaycanı həmişə müdafiə edirik".

### Ermənistan iqtisadi-ticari əməkdaşlıqda da uduzur

Böyük siyasətdə, hətta Avrasiya İqtisadi İttifaqı (AİT) və KTMT səviyyəsində oyundankənar vəziyyətdə qalan Ermənistan "prokurorluq" iddiasına baxmayaraq, nə Belarus, nə də Qazaxıstanla iqtisadi-siyasi əlaqələrində hansısa irəliləyişə dair pozitiv misal göstərə bilmişdir. Statistik göstəricilər isə həm Azərbaycanın, həm də natamamlıq kompleksindən əziyyət çəkən Ermənistanın həmin dövlətlərlə münasibətlərinin yalnız bir istiqaməti - ticarət əlaqələri haqqında da obyektiv mənzərə yaratmaqdadır.

Məsələn, Ermənistan digər dövlətlərlə, o cümlədən Belarus ilə iqtisadi və ticari əlaqələrdəki "uğurlar"dan danışanda konkret ixrac və idxal göstəricilərinə deyil, ümumi əmtəə dövriyyəsinə dair rəqəmlərə istinad etməyi üstün sayır. Sosial-iqtisadi problemlər içərisində olan daxili auditoriya üçün "sakitləşdirici preparat" funksiyasını daşıyan həmin göstəricilərə əsasən, 2017-ci il ərzində Belarus və Ermənistan arasındakı qarşılıqlı ticarət əlaqələrində ümumi əmtəə dövriyyəsi 2016-cı illə müqayisədə 132,9 faiz artaraq 42 milyon ABŞ dolları təşkil etmişdir. Ermənistanın bu rəqəmi ikitərəfli münasibətlərdə "böyük nailiyyət" kimi təqdim etməsinə baxmayaraq, konkret göstəricilər tamamilə fərqli statistik mənzərə yaratmaqdadır.

Belə ki, həmin ümumi məbləğin əsas payını - 34,5 milyon dollarlıq hissəsini məhz Belarusdan idxal olunan sənaye və ərzaq malları təşkil edir. Ermənistandan bu ölkəyə ixrac edilən malların, əsasən mövsümi xarakterli kənd təsərrüfatı məhsullarının payı isə cəmi 8,2 milyon ABŞ dolları olmuşdur. Onu da etiraf edirlər ki, ixrac payının artırılması üçün nə Ermənistanın iqtisadi potensialı, nə də Belarusun bu mallara həvəsi və tələbatı vardır. Belarusdan idxal olunan məhsulların çeşidi isə "qabaqcıl aqrar ölkə" statusuna iddialı olan Ermənistan əhalisinin kənd təsərrüfatı məhsulları ilə təminatının hansı səviyyəyə endirilməsindən əyani şəkildə xəbər verir. Belə ki, Belarusdan əsasən ucuz kənd təsərrüfatı texnikası, gündəlik tələbat malları ilə yanaşı, ət, süd, kərə yağı, tərəvəz, müxtəlif konservlər və s. alınır. Ermənistandan Belarusa yola salınan əsas ixrac məhsulları içərisində spirtli içkilər və dərman istehsalı üçün xammal üstünlük təşkil edir.

Azərbaycana gəldikdə isə, 2017-ci ildə Belarus Respublikası ilə yalnız ticarət dövriyyəsinin ümumi həcmi 147,7 milyon ABŞ dolları olmuşdur. 2018-ci ildə isə bu rəqəm üç dəfə artmışdır. 2017-ci ilin göstəriciləri 2016-cı il ilə müqayisədə 23,2 milyon dollar çoxdur. Həmin rəqəmin 130,2 milyon dollarlıq hissəsini Belarusdan idxal olunan, 17,5 milyonunu isə Azərbaycandan ixrac edilən məhsullar təşkil edir. Bu il isə Azərbaycanın idxal göstəriciləri ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən 50% artmışdır.

Qazaxıstanla bağlı statistik göstəricilər də Ermənistan üçün ürəkaçan deyildir. Xatırladaq ki, ötən il Ermənistanın Qazaxıstanla ümumi ticarət dövriyyəsi cəmi 9 milyon ABŞ dolları təşkil etmişdir. Azərbaycan isə dost dövlətlə ticarət əlaqələrinin səviyyəsini 142 milyon dollara yüksəltmişdir. Bu göstərici həm Azərbaycanı, həm də Qazaxıstanı qane etmir. Çünki ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün hər iki dövlət geniş potensiala malikdir. Eyni zamanda, Qazaxıstan Azərbaycanda başlanan Bakı-Tbilisi-Qars dəmir yollarının potensialından geniş istifadə etməkdədir.

### Minskdən Bakıya tam və birmənalı dəstək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarusa səfəri zamanı vurğuladığı kimi, hər iki dövlət başçısının müntəzəm xarakter almış görüşlərində ikitərəfli əlaqələrin perspektivləri ilə yanaşı regional və beynəlxalq məsələlər də geniş müzakirəyə çıxarılmış, milli mənafelərin bir çox aspektlərinə dair ortaq mövqelər müəyyən edilmişdir. Bütün bunlar qarşılıqlı faydalılıq, qarşılıqlı hörmət və qarşılıqlı yardım prinsipləri üzərində qurulmuş səmimi dostluq münasibətlərinin getdikcə daha da inkişaf etdirilməsi, yeni layihələrin icrası üçün əlverişli zəmin yaratmaqdadır.

Bu gün Azərbaycan Respublikası ilə Belarusun əlaqələrində elə bir sahə yoxdur ki, intensiv inkişaf dövrünü yaşamasın. Məsələn, kənd təsərrüfatı, maşınqayırma, müdafiə sənayesi, yüksək texnologiyalar üzrə qarşılıqlı faydalı əməkdaşlıq öz səmərəsini verməkdədir. Dövlətlərimiz arasında hərbi-texniki əməkdaşlıq sahəsində də mühüm irəliləyişlərə nail olunmuşdur. Eyni zamanda, humanitar əməkdaşlıq istiqamətləri üzrə əlaqələrin geniş potensialı və perspektivləri vardır. Hər iki ölkənin mədəniyyət, idman, turizm imkanları dövlətlərimiz və xalqlarımız arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsində, əməkdaşlığın yeni mərhələyə yüksəlməsində əhəmiyyətli rol oynayır. Minsk şəhərində Azərbaycan və Belarus prezidentlərinin apardıqları danışıqlarda hər iki dövlət üçün bir sıra əhəmiyyətli məsələlər ətraflı müzakirə edilmiş və əməkdaşlığın müxtəlif istiqamətləri - iqtisadi, ticari, nəqliyyat, energetika, hərbi-texniki əməkdaşlıq və digər sahələr üzrə doqquz sənəd imzalanmışdır.

Minsk səfəri ərəfəsində Azərbaycan və Belarus münasibətlərini dəyərləndirən Prezident İlham Əliyevin bildirdiyi kimi, bu əlaqələrin effektivliyinin əsas səbəbi hər iki tərəfin öz üzərinə götürdüyü öhdəlikləri məsuliyyətlə yerinə yetirməsi, beynəlxalq strukturlarda bir-birinin maraqlarını fəal şəkildə dəstəkləməsi, iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişaf etdirilməsində maraqlı olmasıdır. Bu amillər Azərbaycanın digər MDB subyektləri ilə əlaqələri üçün həm də nümunə rolunu oynayır. Azərbaycan bütün dövlətlərlə hüquq bərabərliyi prinsipi əsasında əməkdaşlıq edir. Eyni zamanda, bu əlaqələri başqa dövlətlərin suveren hüquqlarına hörmət etməklə, onların daxili işlərinə qarışmadan müstəqil şəkildə qurmaqdadır. Bu mövqe dövlətimizə olan inam və etimadın daha da möhkəmləndirilməsi, onun etibarlı tərəfdaş kimi qəbul olunması üçün böyük əhəmiyyətə malikdir. Odur ki, dövlətlərarası münasibətlərdə ikitərəfli əlaqələrin qurulmasına və inkişafına üstünlük verən Azərbaycan Respublikası ilə Belarus arasında hərtərəfli strateji əməkdaşlıq rəsmi Bakının milli maraqları və xarici siyasətin prioritet istiqamətlərini mövcud geosiyasi vəziyyət və tərəfdaş dövlətlərin mənafeləri ilə maksimum dərəcədə uzlaşdıra bilmək bacarığının bariz nümunəsi də sayıla bilər. Digər tərəfdən, rəsmi Bakı Belarusla strateji tərəfdaşlığı yeni mərhələyə yüksəltməklə özünün daha geniş əməkdaşlıq imkanlarına malik olduğunu bir daha təsdiqləyir.

### Liderlərin dostluğu strateji tərəfdaşlığı daha da möhkəmləndirir

Xüsusilə qeyd etmək lazımdır ki, səfər zamanı imzalanan çox mühüm bir sənəd Azərbaycan və Belarus arasında strateji tərəfdaşlıq münasibətlərinin hansı səviyyəyə yüksəlməsinin parlaq və obyektiv təzahürü olmuşdur. Belə ki, noyabr ayının 19-da geniş tərkibdə görüşdən sonra İlham Əliyev və Aleksandr Lukaşenko "Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatı"nı imzalamış, sonra yerli və xarici kütləvi informasiya vasitələri nümayəndələri qarşısında çıxış etmişlər. Azərbaycan Respublikasının xarici siyasətinin növbəti uğuru və dövlətlərimiz arasında dostluq əlaqələrinin məntiqi nəticəsi olan həmin sənəd hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan əməkdaşlığın bütün aparıcı istiqamətlərini, prinsipial məsələlərdə ortaq mövqeni tam dolğunluğu ilə əhatə etmişdir. Diqqətçəkən məqamlardan biri birgə bəyanatın 6-cı bəndində irəli sürülən müddəalara rəsmi Minskin də tərəfdar olması və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini bir daha qətiyyətlə müdafiə etməsidir. Həmin bəndə əsasən, Azərbaycan və Belarus dövlətləri tərəfindən münaqişənin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğun olaraq, öncə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına riayət edilməsinin, eləcə də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarlarına müvafiq olaraq həll edilməsinin vacibliyi vurğulanmışdır.

Rəsmi Minskin bu müddəanın birgə bəyanata daxil edilməsini dəstəkləməsi, əslində, işğalçı Ermənistanla eyni hərbi-siyasi və iqtisadi platformaların - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının və Avrasiya İqtisadi İttifaqının üzvü olan Belarusun münaqişəyə dair beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrin icrasının vacibliyinə qətiyyətlə tərəfdar çıxması və Azərbaycanın ərazi bütövlüyünü bir daha müdafiə etməsidir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuat üçün verdiyi bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında prinsipial və obyektiv mövqe nümayiş etdirdiyinə görə Belarus dövlətinə və onun başçısına xüsusi minnətdarlığını bildirmiş və hər iki dövlətin ortaq mövqeyini - münaqişənin Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həll edilməsinin vacibliyini bir daha diqqətə çatdırmışdır. Azərbaycan Prezidenti hər iki dövlət arasında iqtisadi əməkdaşlığın perspektivlərini və hazırda yüksək effektivlik əmsalı olan tammiqyaslı sənaye kooperasiyasının formalaşmasını da xüsusi qeyd etmişdir. Azərbaycan Prezidenti demişdir: *"Biz həmişə bir-birimizi dəstəkləməyə çalışmışıq və bundan sonra da bizdən asılı olan nə varsa edəcəyik ki, Belarus və Azərbaycan daim bir-birinin dəstəyini hiss etsin. Beynəlxalq strukturlarda, iqtisadi kooperasiya çərçivəsində də bütün məsələlərdə bizim çox səmimi münasibətlərimiz var".*

Yeri gəlmişkən, Belarus Prezidenti Aleksandr Lukaşenko da həmkarının mövqeyini dəstəkləyərək, öz çıxışında dövlətlərimiz arasında dostluq münasibətlərinin və əməkdaşlığın böyük potensiala malik olduğunu xüsusi vurğulamışdır: *"Minsk ilə Bakı arasında həll edilməmiş və həll oluna bilməyən məsələlər yoxdur. Biz etibarlı strateji tərəfdaşlar olmuşuq və indi də belədir. Bizim azərbaycanlı dostlarımız, Azərbaycandakı qardaşlarımız bilməlidirlər ki, biz Belarusda Azərbaycan üçün əlimizdən gələni edəcəyik. Bizim üçün çətin dövrlərdə sizin oynadığınız rolu, bizə etdiyiniz köməyi həmişə yadda saxlayacağıq. Biz qədirbilən xalqıq və bunu yaxşı xatırlayırıq. Lazım gələrsə, biz də Azərbaycan xalqına eyni qaydada həmişə kömək edəcəyik".*

### "Made in Azerbaijan" Belarusu da fəth edir

Onu da əlavə edək ki, görüş zamanı ölkələrimiz arasında hərbi-texniki və təhlükəsizlik istiqamətində əməkdaşlığın perspektivləri də müzakirə edilmişdir. Xüsusilə qeyd edilməlidir ki, hərbi-texniki sahədə davamlı şəkildə inkişaf edən ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi haqqında anlaşma memorandumu da imzalanmışdır. Azərbaycan Ordusunun müasir hava hücumundan müdafiə sistemləri və hücum təyinatlı yeni silahlarla təminatının yaxşılaşdırılması üçün konkret müqavilələrin imzalanmasını nəzərdə tutan həmin sənəd Azərbaycan və Belarus arasında hərbi-texniki əməkdaşlıq istiqamətində növbəti uğurlu addım kimi dəyərləndirilir.

Anlaşma memorandumu bir daha təsdiq edir ki, rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına çalışsa da, onun hərbi güc tətbiqi vasitəsilə həllinə həmişə hazırdır. Təbiidir ki, həm Azərbaycan və Belarus prezidentlərinin birgə bəyanatları, həm də hərbi-texniki əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumunun imzalanması da işğalçı Ermənistanda ciddi narahatlıq doğurmuş, hakim dairələrin isə seçkiöncəsi növbəti isterik ritorikası ilə nəticələnmişdir.

Belarus-Azərbaycan strateji tərəfdaşlıq əlaqələrinin, qarşılıqlı yardımlaşmanın bundan sonra da intensiv inkişaf etdirilməsi zərurəti Prezident Aleksandr Lukaşenkonun mətbuat nümayəndələri üçün bəyanatında da geniş əksini tapmışdır. Onun sözlərinə görə, Belarusda Azərbaycanın investisiyalarına və yüksəkkeyfiyyətli məhsullarına ciddi maraq göstərirlər. Bu məhsulların Belarus alıcıları arasında daha da populyar olması üçün Azərbaycan Prezidenti İlham Əliyev Belarusda fəaliyyət göstərən Azərbaycan Ticarət Evi şəbəkəsinin genişləndirilməsi haqqında qərar qəbul etmişdir. Bundan başqa, bir vaxtlar təşəbbüskarları prezidentlər olan layihələr də bu gün öz gücünü artırmaqdadır. Məsələn, Gəncə Avtomobil Zavodunda on bir il ərzində on mindən çox "Belarus" markalı traktor və onun bazasında xüsusi texnika istehsal edilmiş, 3500-dən çox MAZ avtomobili və qoşqular hazırlanaraq istismara buraxılmışdır. Eyni zamanda, Azərbaycana Belarus istehsalı olan "Qomselmaş" kombaynlarının ilk nümunələri də göndərilmişdir. Bütün bunlar Azərbaycan sənayesinin böyük imkanlarından və onun yüksək kadr potensialından xəbər verir. Belarus Prezidenti onu da əlavə etmişdir ki, hazırda Minsk Traktor Zavodu və Gəncə Avtomobil Zavodu Türkiyə ərazisində traktorların yığılması ilə bağlı ümumi layihə üzərində işləyirlər.

Minsk görüşlərində diqqətçəkən məqamlardan biri də Belarus Respublikasının Azərbaycanla olan qarşılıqlı iqtisadi münasibətlərə yeni istiqamətin əlavə olunması - bu dövlətin ortaq nəqliyyat-logistika layihələrinə ciddi maraq göstərməsidir. A.Lukaşenkonun sözlərinə əsasən, Belarus həm də Azərbaycanın genişmiqyaslı və beynəlxalq əhəmiyyətli infrastruktur layihələrində - yeni dəmir yolları xətlərinin çəkilişində, dəniz limanlarının, logistika mərkəzlərinin tikintisində və istismarında da hərtərəfli iştirak etməyə hazırdır. Hazırda hər iki ölkə arasında yükdaşımaların təqribən 96%-i dəmir yolu nəqliyyatı vasitəsilə həyata keçirilir. Bu marşrutun "Şimal-Cənub dəhlizi" çərçivəsində inkişaf etdirilməsi Azərbaycandan və Belarusdan Hindistan, İran, Rusiya, Avropa, Cənub-Şərqi Asiya ölkələrinə yükdaşımaları xeyli asanlaşdıracaqdır.

Minsk görüşləri zamanı hər iki dövlət "Şimal-Cənub nəqliyyat dəhlizi" çərçivəsində birgə fəaliyyətə dair saziş imzalamışlar. Həmin sənədə görə, Belarus və Azərbaycan arasında daha rahat və davamlı, iqtisadi baxımdan əlverişli dəmir yolu əlaqəsinin qurulması nəzərdə tutulmuşdur. Bundan başqa, hər iki prezidentin mətbuat üçün bəyanatlarından göründüyü kimi, əlaqələrin indiki səviyyəsi yüksək olsa da, onları o qədər də qane etmir. Çünki qaprşılıqlı faydalı əməkdaşlığı daha da genişləndirmək üçün zəngin potensial mövcuddur. Məsələn, səhiyyə, təhsil, informasiya-kommunikasiya texnologiyaları, idman və turizm sahələrində də əlaqələri daha da möhkəmləndirmək üçün imkanlardan kifayət qədər istifadə olunmamışdır. Bununla belə, Prezident A.Lukaşenko hər iki dövlətin mənafelərinə cavab verən yeni genişmiqyaslı layihələrin tezliklə reallaşacağına əminliyini bildirmişdir.

### Azərbaycan-Türkmənistan əməkdaşlığı Avrasiya üçün böyük əhəmiyyət kəsb edir

Onu da əlavə edək ki, Belarus görüşlərinin yekunları ilə yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabr ayının 21-də Türkmənistana rəsmi səfərinin nəticələri də xarici siyasətimizin əsas istiqamətlərindən olan türk dövlətləri ilə əməkdaşlıq vektorunun növbəti uğurları kimi dəyərləndirilməlidir. Belə ki, Aşqabadda Azərbaycan və Türkmənistan arasında əlaqələrin bir sıra sahələrini əhatə edən 20-dən çox mühüm saziş imzalanmışdır.

Bundan başqa, hər iki dövlət başçısının - İlham Əliyevin və Qurbanqulu Berdiməhəmmədovun imzaladığı birgə bəyanatda da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı prinsipləri çərçivəsində həlli öz əksini tapmışdır. Eyni zamanda, prezidentlərin görüşlərində və imzalanmış sənədlərdə ölkələrimiz arasında quru, dəniz və dəmir yolu nəqliyyatı vasitəsilə daşımalar sahəsində əlaqələrin genişləndirilməsi, "Şərq-Qərb nəqliyyat dəhlizi"nin inkişaf etdirilməsi, Transxəzər beynəlxalq nəqliyyat xətti çərçivəsindəki layihələrin bundan sonra da dəstəklənməsi nəzərdə tutulmuşdur. Azərbaycanın dövlət başçısı həmin əhəmiyyətli səfərin yekunlarını dəyərləndirərkən Azərbaycanın və Türkmənistanın regionda böyük potensiala malik olduqlarını, ölkələrimiz arasında münasibətlərin strateji xarakter almasının öz məntiqi təsdiqini tapmasını vurğulamış, nəqliyyat və logistika imkanlarının genişləndirilməsinin Avrasiya üçün böyük əhəmiyyət kəsb edəcəyinə əminliyini bildirmişdir.

### Təşəbbüs yenə də İlham Əliyevdədir

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son iki rəsmi səfərindən əldə olunan uğurlu nəticələri timsalında dövlətimizin son illərdə yürütdüyü xarici siyasət strategiyasının effektivliyinin dolğun mənzərəsi yaranmaqdadır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan çoxvektorlu xarici siyasət xəttinin müvəffəqiyyətlə davam etdirilməsi bir tərəfdən Azərbaycanın milli maraqlarının ödənilməsində, onun beynəlxalq siyasi, iqtisadi və humanitar əlaqələrinin yeni səviyyələrə qaldırılmasında, regional və beynəlxalq platformalarda mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynayır, digər tərəfdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həllinə yönəldilmiş səylərin səmərəsini xeyli artırmışdır.

Prezident İlham Əliyevin Belarus və Türkmənistan respublikalarına rəsmi səfərləri əyani şəkildə bir daha təsdiqlədi ki, dövlətlərimiz arasında əlaqələrin inkişaf etdirilməsi, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi üçün kifayət qədər potensial və ən başlıcası, xoş məram vardır. Səfər çərçivəsində imzalanmış birgə bəyanatlara əsasən həm Belarus, həm də Türkmənistan dövlətləri iqtisadi, siyasi və humanitar əlaqələrin davamlı şəkildə möhkəmləndirilməsi ilə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn qəbul edilmiş norma və prinsipləri əsasında tənzimlənməsinin həllinin vacibliyini dəstəkləyirlər.

Eyni zamanda, Azərbaycanın iqtisadi və siyasi cəhətdən güclənməsi, hüquq bərabərliyi, qarşılıqlı faydalılıq prinsipləri əsasında qurulan strateji tərəfdaşlıq və mehriban qonşuluq münasibətləri, onun regionun önəmli dövlətlərindən birinə çevrilməsi münaqişənin tezliklə həllini tapmasına əlverişli zəmin yaratmaqdadır.

***Fərhad MƏMMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru***

# Təhsil siyasəti qlobal çağırışlara uyğun formalaşır

Azərbaycan Müəllimlərinin XV qurultayında ölkəmizdə təhsil sahəsində müsbət dinamikanın müşahidə olunduğu bir daha diqqətə çatdırıldı. Əldə edilən nailiyyətlər barədə məlumat verilən qurultayda qarşıda duran perspektiv məsələlərdən də söz açıldı. Qurultayda iştirak edən deputatlar, müəllim və digər ictimaiyyət nümayəndələri də son illər təhsil sahəsində parlaq uğurlara imza atıldığını təsdiqlədilər.





### Yeni tələblər, müasir standartlar

Milli Məclisin deputatı Zahid Oruc qurultayla bağlı fikirlərini bölüşərək cəmiyyətin formalaşmasında təhsilin üzərinə çox böyük öhdəliklər düşdüyünü söylədi. Zahid Orucun sözlərinə görə, təhsil millətin gələcəyidir və iqtisadiyyat, siyasət, mənəvi həyat, bütün bunlar təhsilə bağlıdır: "Düşmənlə mübarizədə təhsil də mühüm rol oynayır. Ulu öndər Heydər Əliyevin 1970-ci illərdə müəllimə verdiyi dəyər, o zaman Azərbaycan təhsilinin quruculuğu üçün atdığı addımlar bu gün də cənab İlham Əliyevin yürütdüyü siyasətdə, onun qərarlarında öz əksini tapır. Həqiqətən təhsilimizdə inqilabi dəyişikliklər var. Bu bazanı qorumaq lazımdır".

Zahid Oruc əlavə etdi ki, hər bir ölkənin rəqabət qabiliyyəti təhsil sferasında atdığı addımlardan asılıdır: "Yeniləşən texnoloji vasitələr də təhsilin məhsuludur. Bunlar nə qədər sürətli dəyişirsə, əmək bazarında şərtlər də dəyişir. Eləcə də beynəlxalq məkanda təhsilə qoyulan tələb və standartlar getdikcə yeniləşməkdədir. Təhsil siyasətindən beynəlxalq siyasət kimi istifadə etmək lazımdır. Bu qurultayın nəticəsinin millət üçün uğurlu olacağını düşünürəm".

### Qurultay müəllim peşəsinin şərəfinin ucalmasına töhfə verəcək

Milli Məclisin deputatı Fazil Mustafa da müəllimlərin XV qurultayını Azərbaycanın ictimai həyatında böyük tarixi hadisə kimi qiymətləndirdi. Qurultay çərçivəsində bütün məsələlərin təhsilin aparıcı qüvvələri ilə müzakirə edilməsinin, təcrübə və biliklərin bölüşdürülməsinin olduqca faydalı olduğunu dilə gətirən Fazil Mustafa bildirdi ki, yeni ideyaların öyrənilməsi müəllimlər üçün də vacibdir: "Təhsil probleminin bilavasitə bu sahənin aparıcı qüvvəsi ilə müzakirəsi olduqca əhəmiyyətlidir. Cəmiyyətin bütün subyektləri təhsil sahəsinə maraq göstərir və düşünürəm ki, bu işdə hərtərəfli dəstək olmalıdır. Texnologiya, elm, bilik gündən-günə yenilənir və bu yeniliyi təqib etmək, onu müəyyən dərəcədə Azərbaycan təhsil sisteminə tətbiq etmək olduqca çətin işdir. Son illərdə görülən işlərdən aydın olur ki, Azərbaycan təhsili bu yeniliyi anlayan, onu tətbiq etməyə hazır olan qüvvələrin liderliyi altındadır".

Fazil Mustafa qurultayın təhsilin inkişafına böyük töhfə verəcəyinə ümidvarlığını ifadə etdi: "Gələcəkdə bu qurultayın daha geniş tərkibdə təşkilini təklif edərdim. Qurultayın müəllim peşəsinin şərəfinin, statusunun qaldırılması baxımından faydalı olacağına inanıram".

### Müəllimlər daim öyrənməyə, yeniliklərə açıqdır

Müəllimliyin məsuliyyətli, çətin olduğu qədər də maraqlı peşə olduğunu deyən Bakı Slavyan Universiteti nəzdində məktəb-lisey kompleksində riyaziyyat fənnini tədris edən Nigar Əliyeva gənc müəllimlərə göstərilən diqqət və qayğını xüsusi vurğuladı. Onun sözlərinə görə, müəllimlik hər zaman diqqətəlayiq peşədir.

Təhsil strategiyasında əsas istiqamətlərin dayanıqlı inkişafa yönəldiyini qeyd edən Nigar Əliyevanın fikrincə, bu gün dünya standartlarına cavab verən təhsil sisteminin yaradılması istiqamətində islahatlar davam etməkdədir: "Cəmiyyətin gələcəyi bizim əlimizdədir. Müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində dövlət tərəfindən təqdirəlayiq işlər görülür. Müəllim olaraq öyrətməklə yanaşı, daim öyrənmək mövqeyindəyəm. Bugünün gənc müəllimlərinin daha yaxşı öyrətmək üçün davamlı mütaliə, təhlillər etməsi vacibdir. Bu gün gənc müəllimlərimiz öz peşələri yönündə çox əzmkarlıq, fədakarlıq nümayiş etdirirlər. Biz müəllimlər daim öyrənməyə, yeniliklərə can atmalıyıq".

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# Mütərəqqi və inklüziv vergi islahatları

Bu günlərdə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi Milli Məclisdə qəbul olundu. Qanun 2019-cu il yanvar ayının 1-dən qüvvəyə minəcək. Bu dəyişikliklər və Vergilər Nazirliyində aparılan islahatların qısa təhlili onu göstərir ki, islahatlar konseptual və inklüziv xarakter daşıyır.



Vergi sistemlərinin islahatları sahəsində beynəlxalq təcrübə və akademik araşdırmalar iki dilemma ilə rastlaşır: vergi sistemində effektivlik və ya ədalətlilik hansı daha çox üstünlük təşkil etməlidir? Təcrübə göstərir ki, bu iki məfhum ayrı-ayrılıqda yox, yeniliklərin tətbiqində birgə meyar kimi rəhbər tutulmalıdır. Texnoloji yenilik və innovasiyalar yeni iqtisadiyyat, ağıllı iqtisadiyyat kimi anlayışlara yer verir. Bu dəyişikliklər çox vaxt ənənəvi iş yerlərini avtomatlaşma nəticəsində ixtisara salır. Məhz bu səbəbdən vergi siyasəti və bu sahədə həyata keçirilən dəyişikliklər həm yeni yaranmış iqtisadiyyat növlərinin vergitutmaya effektiv şəkildə cəlb olunmasına, eyni zamanda isə ixtisar riski ilə üzləşən vətəndaşların hüquqlarının qorunmasına yönəlməlidir. Bu iki misalda biz həm effektivlik, eyni zamanda isə ədalətlilik prinsiplərini müşahidə edirik. İslahatlara belə bütöv yanaşmanın əsasında vergi əməkdaşları və strukturlarının texnoloji baxımdan təkmilləşdirilməsi, vergi qanunvericiliyində elmlilik prinsipinin rəhbər tutulması və müasir iqtisadi qanunauyğunluqlarla ayaqlaşma durur.

Vergi sistemi və Vergi Məcəlləsinə edilən dəyişikliklərə nəzər saldıqda, sadalanan effektivlik, ədalətlilik və ümumilikdə tam əhatəli yanaşmanın şahidi oluruq. Belə ki, hazırda vergi sistemində vergi inzibatçılığının təkmilləşdirilməsi və struktur islahatları həyata keçirilir, eyni zamanda, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir.

Ümumiyyətlə, vergi islahatları ilə əlaqədar qanunvericiliyə təklif olunan dəyişiklikləri beş istiqamət üzrə qruplaşdırmaq olar: gizli iqtisadiyyatının məhdudlaşdırılması və tədricən tam aradan qaldırılması, beləliklə iqtisadiyyatın şəffaflaşdırılması; vergitutma bazasının genişləndirilməsi; vergi inzibatçılığının təkmilləşdirilməsi; vergi güzəştlərinin iqtisadi və sosial səmərəsinin yüksəldilməsi; vergi ödəyicisinin hüquqlarının möhkəmləndirilməsi və sahibkarlığın inkişafının dəstəklənməsi.

Vergi ödəməyin özü məsuliyyət, həm də bir mədəniyyətdir. Amma təəssüf ki, hazırda "kölgə iqtisadiyyatı" ifadəsini də tez-tez eşitməli oluruq. Təyinatından asılı olmayaraq, iqtisadi sahədə hər bir fəaliyyət, əməkhaqlarının ödənişi, istehsal və xidmət sahələrinin vergi hesablaşmaları şəffaflığa və qanunla nəzərdə tutulan vergiödəmə prinsiplərinə söykənməsə, "kölgə iqtisadiyyatı"nın dirçəlməsinə, bununla da həm dövlət büdcəsinə ödənilməli olan, vergidən yayınmalara şərait, digər tərəfdən isə vergi ödəmədə qanunlara əməl olunmaqla qanuni qazanc əldə edənlərdə narazılıq yaradır. Çünki nəticə etibarilə "kölgə iqtisadiyyatı" haqsız rəqabətin yaranmasına gətirib çıxarır ki, bundan da əziyyət çəkən vergi tələblərinə əməl edənlər olur. Bu mənada Vergilər Nazirliyinin intizamlı ödəyicilərlə vergidən yayınanlara fərqli yanaşma sərgiləmək niyyətləri müsbətdir. Çünki bazarda bu gün sahibkarların uğurlu fəaliyyətinə manеə yaradan başlıca məsələlərdən biri məhz vergiləri ödəməkdən, uçotdan yayınan şəxslərin yaratdığı rəqabət mühitidir. Qanunlara əməl edən sahibkarlar buna görə əziyyət çəkməməli, əksinə, daha çox fayda götürməlidirlər.

Bu baxımdan dəyişikliklər qanun pozuntuları üzrə maliyyə sanksiyalarının tətbiqini, həm də qanunla müəyyən olunmuş qaydada gəlirlərinin və xərclərinin uçotu real olan kiçik sahibkarlıq subyektlərinin ödədikləri dividendlərin vergidən azad edilməsini, həmçinin özəl sektorda çalışan işçilərin əməkhaqlarından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması kimi məsələləri əhatə edir. Məsələn, hazırda əməkhaqqı ilə bağlı olan iki ödəniş növü var. Bunlar fiziki şəxslərin gəlir vergisi və sosial sığorta ödənişləridir. Dəyişikliklərə əsasən bu ödənişlərin vahid inzibatçılığının həyata keçirilməsi təklif edilir. Belə ki, aylıq əməkhaqqı 8000 manata qədər olan vətəndaşlar üçün gəlir vergisi üzrə 100 faizlik güzəşt, 8000-dən yuxarı olan məbləğdə fiziki şəxslərin gəlir vergisinin 14 faiz həcmində müəyyənləşdirilməsi nəzərdə tutulur. Dövlət bu islahata getməklə öz gəlirlərinin müəyyən hissəsini itirir. Lakin bu islahatın həyata keçirilməsi əmək bazarının şəffaflaşmasına gətirəcək və əməkhaqlarının "ağarmasına" şərait yaradacaq. Əmək vergiləri sahəsində islahatlar iqtisadi fəallığın, xüsusilə qeyri-neft sektorunun özəl bölməsində inkişafın daha da canlanması və sürətləndirilməsinə, "kölgə iqtisadiyyatı"nın həcminin tədricən azalmasına və qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasına səbəb olacaq.

Burada mühüm bir məqam da işəgötürənlərin vergi yükünün aşağı salınmasıdır. Sosial sığorta ayırmalarının işçi və işəgötürən arasında bölünməsi, sahibkarın sosial vergi yükünün aşağı salınması da əmək bazarının şəffaflaşmasına öz müsbət təsirini göstərəcək.

Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin bir istiqaməti vergitutma bazasının genişləndirilməsi ilə bağlıdır. Burada məqsəd vergi yükünün çoxaldılması deyil, vergi ödəyənlərin sayının artırılmasının təmin olunmasıdır. Ona görə sadələşdirilmiş vergi ödəyicilərinin dairəsinin məhdudlaşdırılması, banklar və kredit təşkilatları tərəfindən yaradılan ehtiyat fondlarının vergitutma məqsədləri üçün xərclərə də yönəldilməsi mexanizminin təkmilləşdirilməsi, ofşor zonalarda aparılan əməliyyatlar üzrə vergitutmanın əhatə dairəsinin dəqiqləşdirilməsi dəyişikliklərdə qarşıya qoyulan əsas vəzifələrdəndir.

Vergi inzibatçılığı vergi sisteminin səmərəli fəaliyyətini təmin edən əsas elementlərdəndir. Təsadüfi deyil ki, dəyişikliklərin mühüm hissəsini vergi inzibatçılığının təkmilləşdirilməsi təşkil edir. Bu zaman uçotdan yayınan vergi ödəyicilərinin vergi nəzarəti tədbirləri ilə məcburi uçota alınması, təkrar səyyar vergi yoxlamasının nəticəsinin rəsmiləşdirilməsi zamanı əvvəlki dövrlər üzrə yoxlamaların nəticələri ilə əlaqədar aşkar edilən uyğunsuzluq halları üzrə müvafiq qərarların qəbulu kimi məsələlər qanunvericiliklə təsbit olunacaq.

2019-cu ildən başlayaraq onlayn nəzarət kassa aparatları tətbiq ediləcək. Bu yenilik nəticəsində pərakəndə ticarət və xidmət sektorunda baş verən istənilən ödəniş həmin anda onlayn sistemdə əksini tapacaq ki, bu da nəticə etibarilə mümkün pozuntuların, dövriyyələrin gizlədilməsi kimi halların qarşısını alacaq.

Vergi güzəştlərinin iqtisadi səmərəsinin artırılmasına gəldikdə, qeyd etməliyik ki, Azərbaycanda kifayət qədər vergi güzəştləri mövcuddur. Hesablamalar göstərir ki, bu güzəştlərin məbləği az deyildir. Yeni dəyişikliklərə əsasən vergi ödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmlərin satışına vergi güzəşti tətbiq ediləcək, dövlət əmlakının özəlləşdirilməsi zamanı alıcı kimi çıxış edən şəxsə əmlak vergisi üzrə müddətli vergi güzəşti tətbiq olunacaq.

Vergi islahatlarının və məcəlləyə ediləcək dəyişikliklərin olduqca mütərəqqi olmasını göstərən əsas nümunələrdən biri vergi ödəyicisinin hüquqlarının möhkəmləndirilməsi və genişləndirilməsi, sahibkarlığın inkişafının real dəstəklənməsidir. Bu sırada əsas diqqəti çəkən məqamlardan biri gələn ildən kiçik sahibkarlıq subyektlərinin stimullaşdırılması məqsədilə sadələşdirilmiş verginin dərəcəsinin 4 faizdən 2 faizə endirilməsidir. Bununla da, faktiki olaraq, Bakı şəhərində fəaliyyət göstərən vergi ödəyiciləri üçün vergi yükü iki dəfə azaldılmış olur.

Həmçinin mühasibat uçotunu elektron formada aparan vergi ödəyicilərinə əlavə üstünlüklər veriləcək. Məsələn, elektron formada təqdim edilən məlumat üzrə azaldılmış və yayındırılmış vergi məbləği aşkarlanarsa, digər vergi ödəyicilərindən fərqli olaraq, 50 faiz deyil, 25 faiz maliyyə sanksiyası tətbiq ediləcək.

Nazirliyin vergi siyasəti və inzibatçılığın səmərəli həyata keçirilməsi üçün yüksək texnologiyalara söykənən islahat planlarına dair məlumat var. Burada süni intellekt, böyük məlumatların emalı kimi alətlərdən istifadə olunacağı və sahibkarlarla işə fərdi yanaşmanın təmin olunması gözlənilir.

Vergi siyasəti qurumlararası əməkdaşlıq prinsiplərini də rəhbər tutur. Prezident İlham Əliyevin fərmanı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılmışdır və Vergilər Nazirliyinin iqtisadi klasterlər üzrə bu qurumla sıx əməkdaşlığı gözlənilir. Bu əməkdaşlıq çərçivəsində mikro və kiçik sahibkarlıq subyektlərinə gəlir, mənfəət, əmlak və torpaq vergisi üzrə vergi güzəştləri barədə təkliflər də hazırda müzakirə olunur.

Beləliklə, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər kifayət qədər geniş və sanballıdır. Vergi sistemindəki, qanunvericilik və inzibatçılıqdakı yeniliklər dünya təcrübəsini nəzərə alır, konseptual xarakter daşıyır və bütün bunlar ədalətlilik və effektivliyin artırılmasına gətirib çıxaracaq. Eyni zamanda hər biri mütərəqqi mahiyyət daşıyan bu dəyişikliklər dövrün çağırışları və inkişafda olan Azərbaycan iqtisadiyyatında son illər baş verən keyfiyyət dəyişiklikləri ilə tam uzlaşır.

***Tamerlan VAHABOV, sahibkar***

*Əvvəli 1-ci səh.*

# Aqrar sektorun əsas hədəflərindən biri

## Toxum idxalından azad olmaq üçün ölkəmizin əlverişli iqlim şəraiti və zəngin bitki genofondu var





Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə ökədə kənd təsərrüfatı bitkiləri altında olan 1,66 milyon hektarın 55 faizi və ya 914,6 min hektarı buğda və arpa bitkilərinin payına düşüb. Taxıl bitkiləri ölkənin əksər suvarılan və dəmyə sahələrində becərilir. Vaxtaşırı bölgələrdə qlobal iqlim dəyişiklikləri fonunda başverən abiotik və biotik stress amillərinin güclənməsi bəzi illərdə ölkədə, xüsusən də dəmyə sahələrdə taxıl əkinlərində məhsul itkisinə səbəb olur".

Taxıl istehsalının artımı kompleks aqrotexniki tədbirlərin tətbiqi ilə yanaşı, toxumun keyfiyyətindən də asılıdır. Səpin keyfiyyətinin tələblərinə cavab verən sertifikatlı toxumu yüksək və keyfiyyətli məhsulun əldə edilməsinin başlıca şərti hesab edən alim qeyd edir ki, fermerlər yüksək reproduksiyalı toxumlarla təmin edilməlidirlər.

Toxumçuluq sektorunun əsas vəzifəsi təkmilləşmiş yeni sortların tədqiqatçılar tərəfindən fermerlərə qısa vaxt ərzində çatdırılması, onların sertifikatlı toxuma olan tələbatlarının ödənilməsi, eləcə də dövlətin dəstəklədiyi toxum sektoru tərəfindən müxtəlif səbəblər üzündən məhsul olmayanda və ya təbii fəlakətlər baş verdikdə toxum təhlükəsizliyi mexanizminin təmin edilməsidir. Cavanşir Təlai qeyd etdi ki, dövlət bu sahənin strateji rolunu nəzərə alaraq toxumçuluq sektorunun inkişafı məqsədilə toxum istehsalı ilə məşğul olan təsərrüfatları subsidiyalaşdırır: "Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyinin üzərinə böyük məsuliyyət qoyulub. Nazirlik tərəfindən fermerlərin və milli iqtisadiyyatın tələbatının ödənilməsi, eləcə də toxumçuluq sektorunun dəstəklənməsi istiqamətində tədbirlər həyata keçirilir".

Məlum olduğu kimi, "Toxumçuluq haqqında" qanuna əsasən, orijinal, superelit və elit toxumlar sort müəllifinin və ya patent sahibinin nəzarəti altında elmi tədqiqat institutlarının təcrübə təsərrüfatlarında, həmçinin R1 və R2 reproduksiyalı toxumlar dövlət və bu fəaliyyət növü ilə məşğul olan ixtisaslaşdırılmış özəl toxumçuluq təsərrüfatlarında istehsal edilir. Bundan əlavə, Əkinçilik İnstitutunun bölgələrdəki təcrübə təsərrüfatları dövlətin sifarişi əsasında dənli taxıl və paxlalı, eləcə də yüksək reproduksiyalı yem toxumları yetişdirir. Hər il kvotaya uyğun istehsal olunan 1350 ton elit taxıl toxumları Kənd Təsərrüfatı Nazirliyinin bölgüsü əsasında 120-dən çox özəl və dövlət toxumçuluq təsərrüfatlarına verilir. Bu gün respublikada taxıl əkinlərinin 75 fazidən çoxu həmin institutun yaratdığı, eləcə də dövlət reyestrinə daxil olan rayonlaşmış milli sortların payına düşür. Ölkəmizin torpaq-iqlim şəraitinə uyğunlaşdırılan buğda sortları yüksək məhsuldarlığı və keyfiyyət göstəriciləri ilə fərqlənir. Belə sortlara rayonlaşmış və seleksiya nailiyyətlərinin dövlət reyestrinə daxil olan patentləşmiş "Qobustan", "Qırmızıgül 1", "Murov 2", "Fatimə", "Qızıl buğda", "Ləyaqətli 80" sortlarını misal göstərmək olar. Sortun bioloji xüsusiyyətinə uyğun olaraq aqrotexnikasına düzgün əməl edən fermerlər hektardan ortalama 50-60 sentner məhsul əldə edirlər.

Azərbaycanda fəaliyyət göstərən istixanalar əsasən hibrid tərəvəz toxumlarından istifadə edir. Amma həmin toxumlar ölkəyə idxal olunur. Onu da qeyd edək ki, bitki toxumları istehsalı hazırda dünyada ən gəlirli sahələrdən sayılır. Toxumçu mütəxəssislər üçün Qlobal İnformasiya Xidmətlərinin (www.seedquest.com) məlumatına görə, bu bazarın dövriyyəsi 6 milyard dollardan çoxdur, növbəti illərdə həmin rəqəmin 12,9 milyard dollara çatacağı proqnozlaşdırılır. Bu da toxumçuluq bazarında illik 28 faiz artım deməkdir. Məsələn, dünyada hər il 916,1 min ton tərəvəz toxumu istehsal olunur. Bu sahədə Monsanto (ABŞ), Syngenta (İsveçrə), Bayer CropScience (Almaniya), Limagrain (Fransa), TAKII (Yaponiya), Rijk Zwaan (Hollandiya), Sakata (Yaponiya) şirkətləri daha çox fərqlənir. Onlardan ilk beşi dünya tərəvəz toxumu bazarının 75 faizinə nəzarət edir. Azərbaycana hibrid toxumlar məhz həmin şirkətlər vasitəsilə idxal olunur.

Cavanşir Təlai deyir ki, bu gün dünyada toxum idxalından asılılıq bir çox ölkələri narahat edir: "Hibrid toxumların istifadəsi bütün dünyada artır. Belə populyarlıq onların bar orqanlarının yüksək homogenliyi, xəstəliklərə və ətraf mühitin ekstremal amillərinə qarşı davamlılığı, daşınma üçün əlverişliliyi, uzunmüddətli saxlanma üçün uyğunluğu, sabit yüksək məhsuldarlıq qabiliyyəti ilə bağlıdır. Birinci nəsil hibrid toxumların cücərmə qabiliyyəti yüksək olur və onların qiyməti adi sort toxumlardan yüksəkdir. Bahalığın hibrid toxumunun istehsalındakı mürəkkəbliklərlə bağlı olduğunu deyən alim bunu belə izah edir: "Hibrid toxum istehsalı əsasən məhsuldarlığın və bitkinin müxtəlif streslərə davamlılığının artırılmasına hədəflənmişdir. Birinci nəsil hibridlərin potensialının üzə çıxarılması üçün yaxşı aqrofon, müəyyən iqlim şəraiti, yemləmə, suvarma və s. lazımdır. Bəzən hibridlər bizim torpaq-iqlim şəraitinə uyğun gəlmir. Nəticədə kənardan gətirilən tərəvəzlər xarici görünüşünə görə cəlbedici olsa da, dad-tamına və keyfiyyətinə görə yerli məhsullardan geri qalır". Adi toxumların xarici görünüşünə görə hibrid toxumlardan fərqlənmədiyini söyləyən alim tövsiyə edir ki, kənd təsərrüfatı məhsulları istehsalçıları hibrid toxumları etibar qazanmış istehsalçı şirkətlərdən alsınlar.

Mütəxəssis onu da nəzərə çatdırır ki, hibrid toxumları istər dövlət, istərsə də özəl təsərrüfatlarda müvafiq maddi-texniki baza olmadan istehsal etmək mümkün deyil: "Belə toxumlar adətən keyfiyyətsiz olur. Səbəbi hibridlərin yaradılması prosesinin mürəkkəbliyidir. Həmin toxumlar yetişdirilərkən bitkilər tam izolyasiya olunmalıdır ki, təsadüfi tozlanma getməsin. Odur ki, hibridin yaranması prosesi istehsalçı müəssisələr tərəfindən sirr kimi saxlanılır. Bir çox fermerlər növbəti dəfə əkmək üçün hibrid bitkinin toxumlarını toplayırlar, ancaq istədikləri nəticəni əldə edə bilmirlər. Toxum istehsalçıları onları elə yetişdirirlər ki, ondan ikinci dəfə istifadə etmək mümkün olmasın. Məqsəd fermerləri özlərindən asılı vəziyyətdə saxlamaqdır".

Hibrid toxumundan asılılığın aradan qaldırılması üçün elmi müəssisələrin yeni hibrid texnikası və texnologiyaları ilə təhciz olunaraq maddi-texniki bazanın gücləndirilməsinə, yerli kadrların hazırlanmasına, seleksiya, genetika və toxumçuluq sahələrinə gənclərin maraqlarının artırılmasına, bu elm sahələrinin dünya standartlarına uyğun inkişafına, yerli hibrid toxum istehsalı ilə məşğul olacaq böyük şirkətlərin yaranması üçün güzəştli kreditlərin verilməsinə, yerli toxum bazarının yaradılmasına və fermerlər arasında təbliğinə ehtiyac var. Yeri gəlmişkən onu da qeyd edək ki, ölkəmiz nəinki hibrid toxum istehsalı, hətta ixracatçı qismində iştirak etmək üçün əlverişli torpaq-iqlim şəraitinə, zəngin bitki genofonduna malikdir. Çünki hazırda ölkəmizin böyük həcmdə maliyyə vəsaiti xaricdə istehsal olunan hibrid toxumların alınmasına sərf edilir.

Kənd təsərrüfatı məhsul istehsalçılarının yüksək məhsuldar və keyfiyyətli toxumlara tələbatının dolğun ödənilməsində Kənd Təsərrüfatı Nazirliyində Dövlət Toxum Fondunun yaradılması mühüm rol oynayacaq. Artıq nazirliyin Dövlət Toxum Fondunun xətti ilə 5 rayonda beynəlxalq standartlara cavab verən və emal gücü saatda 5 ton olan toxum emalı müəssisələrinin tikilməsi nəzərdə tutulub. Hazırda Şəkidə və Xaçmazda bu istiqamətdə görülən işlər tamamlanmaq üzrədir. İstismara veriləcək toxum emalı müəssisələri fermerlərin yüksək reproduksiyalı sertifikatlı taxıl toxumları və digər kənd təsərrüfatı bitkilərinin rayonlaşmış sortları, Ucarda pambıq emalı zavodunun tikilməsi pambıqçılıqla məşğul olan fermerlərin lifli və lifsiz pambıq toxumları ilə təmin edilməsinə imkan verəcək.

Bunlardan əlavə, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda hibrid tərəvəz toxumlarının yetişdirilməsi üçün İsrail texnologiyası ilə 6 hektar sahəsi olan yeni müasir istixana kompleksi tikilir. İstixana kompleksi fəaliyyətə başladıqdan sonra örtülü sahələrdə tərəvəz yetişdirən fermerlərin hibrid toxumlarına tələbatının ödənilməsində problem olmayacaq. Həmçinin müasir suvarma sistemi ilə təchiz olunacaq 30 hektarda açıq sahə üçün müxtəlif tərəvəz bitkilərinin hibrid toxumları da yetişdiriləcək.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Milanda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü olacaq

ATƏT-in Nazirlər Şurasının 25-ci sessiyasında iştirak edən Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikası xarici işlər nazirinin vəzifələrini icra edən Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya Federasiyası, Stefan Viskonti - Fransa və Əndrü Sxofer - ABŞ) vasitəçiliyi ilə dekabrın 5-də Milanda görüş keçiriləcək.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak edəcək.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunacaq.

## Azərbaycanın xarici işlər naziri Meksikanın yeni seçilmiş prezidentinin andiçmə mərasimində iştirak edib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Meksika Birləşmiş Ştatları Prezidenti Andres Manuel Lopez Obradorun andiçmə mərasimində iştirak edib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, mərasimə bir sıra ölkələrin dövlət başçıları, yüksək səviyyəli qonaqlar qatılıblar.

Tədbir çərçivəsində Elmar Məmmədyarov Meksikanın yeni təyin olunmuş xarici işlər naziri Marselo Ebrard Kasaubon ilə görüşüb. Görüşdə E.Məmmədyarov Prezident İlham Əliyevin Meksika Prezidentinə səlahiyyətlərinin başlanılması münasibətilə təbriklərini çatdırıb. Tərəflər iki ölkə arasında münasibətlərin inkişafı perspektivlərini müzakirə ediblər.






## Beynəlxalq Əlillər Günü qeyd edilib

İsmayıllı şəhərindəki "Qala" şadlıq sarayında İsmayıllı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Beynəlxalq Əlillər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Qarabağ müharibəsi əlilləri, əlil uşaqlar, müxtəlif ağır xəstəliklərdən sonra əlil olmuş sakinlər iştirak edib.





Əvvəlcə şadlıq sarayının foyesində əlil uşaq və gənclərin yaradıcılıq nümunələrindən ibarət sərgiyə baxış keçirilib.

Tədbiri giriş nitqi ilə rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov açıb. O, çıxışında 2018-ci ilin rayon üçün əlamətdar olmasını vurğulayıb. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu il avqust ayının 25-26 tarixlərində İsmayıllıya səfərini xatırladıb. Rayon rəhbəri bildirib: Dövlət başçısının səfəri zamanı rayonun həyatı, məişəti, iqtisadiyyatı, təhsili, mədəniyyəti və kənd təsərrüfatı ilə bağlı bir sıra vacib obyektlərin açılması əlamətdar haldır. Dövlətin, möhtərəm Prezidentin yaratdığı imkanlar, göstərdiyi qayğı və diqqətin nəticəsidir ki, layiq olduğumuz həyatı yaşayır, problemlərimizi birgə həll edirik. Fiziki çatışmazlıq ölkəmizin xoşbəxt vətəndaşı olmaqda kiməsə maneə yarada bilmir. Çünki dövlətimiz və cənab Prezident hər bir Azərbaycan vətəndaşının həyatının təminatçısıdır, qayğıkeşidir və həmişə xalqın yanındadır. Əlil vətəndaşların həyat səviyyəsinin durmadan yaxşılaşması, şəxsi potensiallarının üzə çıxarılması üçün bütün imkanlar yaradılır. İsmayıllı rayon icra hakimiyyəti də dövlət siyasətinin bu vacib istiqamətini məsuliyyətlə həyata keçirir".

Dövlət Sosial Müdafiə Fondu rayon şöbəsinin nümayəndəsi tədbirdə çıxış edərək deyib ki, əlillərə dövlət qayğısı müntəzəm, çoxistiqamətli qaydada davam edir. Rayonda müxtəlif səbəblərdən əlil olanların sayı isə 7369 nəfərdir. Tərkibində əsasən Qarabağ müharibəsi əlilləri olmaqla 115 nəfər əlil mənzillə, 18 nəfər əlil fərdi evlə, 60 nəfər əlil minik maşını, 160-a yaxın əlil həyətyanı torpaq sahəsi, 10 nəfər əlil isə əl arabası ilə təmin olunub. 46 nəfər əlilə sanatoriyalara yollayış verilib. 2019-cu ildə də əlillər üçün fərdi ev tikintisi davam etdiriləcək.

Tədbirdə Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İB-yi rayon şöbəsinin sədri Vidadi Zərbiyev, Əlil sahibkarlar təşkilatı rayon şöbəsinin sədri Rahim Səmədov, rayon mərkəzi xəstəxanasının baş həkimi Aydın Əsədov, paralimpiyaçı Şakir Ömərov, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı rayon komitəsinin sədri Hafiz Kərimov və başqaları çıxış ediblər.

1 saylı uşaq bağçasının körpələri, rayon incəsənət məktəbinin rəqqasları maraqlı və məzmunlu ifaları ilə məclisə şənlik gətiriblər. Şəhər Mədəniyyət mərkəzinin bədii kollektivinin və Aşıq Elmanın çıxışları alqışlarla qarşılanıb.

Tədbir iştirakçıların ölkə rəhbərinə minnətdarlığı ilə başa çatıb.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

## "Bakutel-2018"də 20 ölkədən 230 şirkət iştirak edəcək

Dekabrın 4-7-də keçiriləcək "Bakutel-2018" XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində 20 ölkədən 230 şirkət iştirak edəcək.

Bu barədə "Caspian Event Organisers" şirkətinin direktoru Edvard Stroun "Bakutel-2018" sərgisinin açılışına həsr olunmuş mətbuat konfransında deyib. Bildirib ki, bu il sərginin sahəsi 25 faiz artıb. Debütantlar isə iştirakçıların 30 faizini təşkil edir.

Aparıcı İKT şirkətləri, mobil operatorlar, internet provayderlər, sistem inteqratorları və gənc layihəçilər sərgidə öz məhsul və texnologiyalarını təqdim edəcəklər.

## Küveytdə Ərəb Xəbər Agentlikləri Təşkilatı Baş Assambleyasının 46-cı konfransı keçirilib

Dekabrın 2-3-də Küveyt Dövlətinin paytaxtı əl-Küveyt şəhərində Ərəb Xəbər Agentlikləri Təşkilatının (FANA) Baş Assambleyasının 46-cı konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, Küveytin Baş naziri Cabir Mübarək əl-Həməd əs-Sabahın himayəsi ilə keçirilən tədbirdə üzv agentliklərin rəhbərləri, o cümlədən Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti, Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və agentliyin ərəb dilində informasiya bölməsinin müdiri Şıxəli Əliyev iştirak ediblər.

Konfransın açılışında çıxış edən Küveytin informasiya və gənclər üzrə dövlət naziri Məhəmməd əl-Cəbri bu gün dünyada sürətlə cərəyan edən hadisələrin, ortaya çıxan çağırışların mediaya təsirsiz ötüşmədiyini, bəzi mənfi təmayüllərin yaranmasına səbəb olduğunu bildirib. Nazir qeyd edib ki, xəbər agentlikləri cəmiyyətlərin sabitliyini pozmağa, insanlarda çaşqınlıq yaratmağa yönəlmiş yalan xəbərlərə qarşı sipər olmalıdır.

Küveytli nazir AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanova dəvəti qəbul edərək konfransda iştirak etdiyinə görə təşəkkürünü bildirib.

Daha sonra FANA-nın prezidenti, Küveytin KUNA xəbər agentliyinin İdarə Heyətinin sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah və FANA-nın baş katibi Fərid Əyyar çıxış edərək konfransda müzakirə olunacaq məsələlər barədə məlumat verib, iştirakçıları fəal diskussiyalara çağırıblar.

Açılış mərasimindən sonra nümayəndələr KUNA-nın təşkil etdiyi fotosərgi ilə tanış olublar.

Sonra konfrans işçi iclaslarla davam edib.

Birinci işçi iclasda FANA-nın illik fəaliyyəti barədə məruzə təqdim edilib və qarşıda duran problemlər, o cümlədən təşkilatın büdcəsi, treninq proqramlarında iştirak məsələləri barədə müzakirələr aparılıb.

İclasda çıxış edən OANA-nın və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov regional media qurumlarının səmərəli əməkdaşlığından danışıb. O, AZƏRTAC ilə Küveytin KUNA, Səudiyyə Ərəbistanının SPA agentlikləri arasında dostluq və əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini vurğulayaraq əmin olduğunu bildirib ki, Küveytdə yüksək səviyyədə təşkil edilən konfrans həm FANA və OANA, həm də ərəb xəbər agentlikləri ilə AZƏRTAC arasında əməkdaşlığın daha da güclənməsinə təkan verəcək.

"KUNA agentliyinin sədrliyi dövründə FANA çox mühüm irəliləyişlərə nail olub. Bu uğurda AZƏRTAC-ın yaxın dostları KUNA xəbər agentliyinin İdarə Heyətinin sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabahın və peşəkar media mütəxəssisi, FANA-nın baş katibi Fərid Əyyarın ölçüyəgəlməz xidmətləri var. Onlar nəinki FANA-nın, habelə Dünya Xəbər Agentlikləri Konqresi Şurasının, OANA-nın və digər regional media təşkilatlarının fəaliyyətinə də dəyərli töhfələr verir", - deyə Aslan Aslanov qeyd edib.

OANA-nın veb-saytının ərəb dünyası ilə bağlı məlumatların daha geniş coğrafiyada yayılması üçün mühüm platforma olduğunu vurğulayan Aslan Aslanov ərəb xəbər agentliklərini burada daha çox informasiya paylaşmağa çağırıb. O, AZƏRTAC-ın OANA-nın daha da təkmilləşdirilməsi, müasir tələblərə cavab verən quruma çevrilməsi üçün daimi baş katiblik ofisinin yaradılması, qurumun təlim akademiyasının təsis edilməsi, maliyyə komissiyasının formalaşdırılması və digər təkliflər irəli sürdüyünü xatırladıb, bununla bağlı ərəb xəbər agentliklərinin fikirlərinin də önəmli olacağını diqqətə çatdırıb.

Hazırda medianın əsas problemlərindən birinə çevrilmiş yanlış xəbərlərin yayılmasının qarşısının alınması yollarına toxunan OANA-nın prezidenti etibarlı xəbər mənbələri olan agentliklərin daha sıx əməkdaşlıq qurmasına, informasiya və təcrübə mübadiləsini gücləndirməsinə ehtiyac olduğunu bildirib.

İşçi iclaslarda bir sıra qərarlar qəbul olunub.

Qeyd edək ki, FANA 1975-ci ildə yaradılıb. Mərkəzi qərargahı Livanda yerləşən bu təşkilat öz sıralarında 18 ərəb xəbər agentliyini birləşdirir. Ərəb Liqasının nəzdində fəaliyyət göstərən FANA-nın məqsədi media qurumlarının əməkdaşlığının gücləndirilməsi və üzv agentliklər arasında təcrübə mübadiləsinin genişləndirilməsidir. Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah 2015-ci ildən FANA-ya sədrlik edir.

Konfransdan əvvəl KUNA-nın Baş direktoru, FANA-nın sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah bu ölkədə səfərdə olan AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) prezidenti Aslan Aslanovla görüşüb.

Görüşdə FANA ilə OANA arasında əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi qeyd olunub, media sahəsində əlaqələrin gücləndirilməsi yolları barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı, həmçinin Küveyt-Azərbaycan münasibətlərinə toxunulub. Belə bir yekdil fikir ifadə olunub ki, milli xəbər agentliklərinin əməkdaşlığı iki ölkəni birləşdirən əlaqələrin miqyasına uyğun səviyyədə genişləndirilməlidir.

Aslan Aslanov görüşdən xatirə olaraq Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabaha milli ornamentlərlə bəzədilmiş Azərbaycan xalçası və kitablar hədiyyə edib. Kitablardan biri açılışında Azərbaycan Prezidentinin iştirak etdiyi Dünya Xəbər Agentliklərinin Bakı Konqresi barədədir. Konqresdə aparılan müzakirələrdə KUNA-nın Baş direktoru da çıxış edərək medianın aktual problemlərinin həlli barədə faydalı fikirlər səsləndirib. Konqresin materialları nəşrdə Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərində verilib. Digər kitab isə dünya xəbər agentliklərinin, o cümlədən KUNA-nın təqdim etdiyi fotolar əsasında nəşr olunub.

Görüşdən sonra KUNA agentliyinə müsahibə verən AZƏRTAC-ın İdarə Heyətinin sədri ölkələrimiz və xalqlarımız arasındakı səmimi dostluq əlaqələrindən danışaraq deyib: "Bu əlaqələr xalçanın bir-birinə sıx şəkildə toxunmuş ilmələrinə bənzəyir, qürur hissləri doğurur".

AZƏRTAC-ın İdarə Heyətinin sədri Küveytə səfərinin çox məhsuldar və işgüzar mühitdə keçdiyini bildirib, göstərilən xoş münasibətə görə minnətdarlığını ifadə edib. Vurğulayıb ki, qarşılıqlı səfərlər və görüşlər medianın inkişafı, müasir modellərin tətbiqi ilə bağlı təcrübə mübadiləsi, xəbər agentlikləri arasında əməkdaşlığın güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

# Regionlar yenə irəli çıxır

## Ölkədə hər yeni açılan dörd iş yerindən üçü bölgələrin payına düşür

***Əvvəli 1-ci səh.***

İndi isə bununla bağlı son statistika: Dövlət Statistika Komitəsinin məlumatına görə, üçüncü dövlət proqramının icrasını əhatə edən 1 yanvar 2014-cü ildən 1 oktyabr 2018-ci il tarixinədək ölkə üzrə ümumilikdə 913,6 min olmaqla 624,9 min daimi iş yeri açılıb. Bu dövrdə ənənəvi qaydanın əksinə olaraq iş yerlərinin əksəriyyəti paytaxtda deyil, regionlarda yaradılıb. Belə ki, cari ilin 9 ayında yeni iş yerlərinin 24 faizi Bakıda açıldığı halda, 75 faizi regionlarda açılıb. Yəni yeni iş yerlərinin açılmasında da bölgələr önə keçib.

Amma bu da həqiqətdir ki, bir çox hallarda sahibkarlar vergidən və Dövlət Sosial Müdafiə Fonduna vəsait ödəməkdən yayınmaq üçün işçilərlə əmək müqaviləsi bağlamırlar. Yəni faktiki olaraq işçilərin sayını gizlədirlər. Bunun nəticəsində məşğul əhalinin və işsizlərin sayının dəqiq müəyyən edilməsində çətinliklər yaranır. Prezident İlham Əliyev belə halları kəskin tənqid edərək demişdir: "Bununla bərabər, sosial sahənin şəffaflaşdırılması və beynəlxalq təcrübə əsasında fəaliyyət göstərməsi bizim iqtisadi inkişafımıza da böyük təkan verəcək. Çünki qeyri-formal məşğulluq Azərbaycanda kütləvi xarakter daşıyır. İndi hökumət bu məsələ ilə ciddi məşğul olur, nazirlik də məşğul olur və biz buna son qoymalıyıq. Buna son qoymaq üçün mexanizmlər var, işlənilir və hesab edirəm ki, yaxın gələcəkdə böyük irəliləyiş olacaqdır. Biz qeyri-formal məşğulluqla bağlı çox ciddi addımlar atırıq və atacağıq. Əgər biz bu vəziyyətdən çıxa bilsək, bu, ölkə iqtisadiyyatına böyük dəstək olacaq. Onu da qeyd etməliyəm ki, qeyri-formal məşğulluq, demək olar, bütün ölkələrdə var və mövcuddur".

Sözümüzün canı budur ki, əgər, Prezidentin də qeyd etdiyi kimi, sözügedən sahədə şəffaflıq tam təmin edilsəydi, istər paytaxtda, istərsə də regionlarda rəsmi iş yerlərinin, yəni işləyənlərin sayı daha çox olardı. Amma bu işə nəzarət etməli olan iki böyük nazirliyin (Əmək və Əhalinin Sosial Müdafiəsi və Vergilər nazirliklərinin) rəhbərliyi dəyişdirilib və yeni rəhbərliklər dövlət başçısının sözügedən sahədə mövcud olan nöqsanlarla bağlı söylədiyi iradlarındakı halların aradan qaldırılması istiqamətində ardıcıl və təsirli tədbirlər görməyə başlayıblar.

Həm də bunun nəticəsidir ki, cari ilin 9 ayı ərzində ölkə üzrə kifayət qədər çox - 192,5 min yeni (o cümlədən 94,5 min daimi) iş yerinin açılması rəsmiləşdirilib. Çox yaxşı haldır ki, 42,4 faizinin qeyri-dövlət sektoruna aid olduğu yeni iş yerlərinin çox hissəsi regionların payına düşür. Bu isə bölgələrdə yaşayan əhalinin də sosial təminatının yaxşılaşması deməkdir. Onu da qeyd edək ki, daimi iş yerlərinin 8,2 faizi yeni yaradılan, 33,9 faizi mövcud müəssisə və təşkilatlarda, 57,5 faizi fərdi sahibkarlıq subyektlərində, qalanı isə fəaliyyətini bərpa edən müəssisə və təşkilatlarda yaradılıb. Cari ilin yanvar-sentyabr aylarında hüquqi şəxslər tərəfindən yaradılan daimi iş yerlərinin çox hissəsi ticarət, nəqliyyat vasitələrinin təmiri, tikinti, emal sənayesi, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrini əhatə edir.

Bu ilin 9 ayı ərzində ölkədə həmçinin 30 min iş yeri bağlanıb. Bağlanan iş yerlərinin 88,7 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin 73,6 faizi fərdi sahibkarlıq subyektlərinin, 8,4 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 18 faizi fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlarla əlaqədardır.

Yeri gəlmişkən qeyd edək ki, bu ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı keçən ilin müvafiq dövrünə nisbətən 2,8 faiz artaraq 540,5 manat olub. Əməkhaqqı neft sektorunda 3059, qeyri-neft sektorunda 483,2, dövlət müəssisələrində 428,6, özəl müəssisələrdə isə 691,2 manata çatıb.

Bu gün ölkəmizdə həyata keçirilən böyük iqtisadi layihələrin icrasında və digər sahələrdə yerli əhali ilə bərabər əcnəbilər də çalışır. Cari ilin üçüncü rübünün sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilən və müddəti uzadılan iş yerlərində çalışan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 3858 nəfər olub. Onların da 39,9 faizi tikintidə, 30,2 faizi mədənçıxarma, 9,9 faizi emal sənayelərində, 5,2 faizi turistlərin yerləşdirilməsi və ictimai-iaşədə, 4,4 faizi təhsildə, 3,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri və 13,5 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələri alıblar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# “Azərbaycan Respublikası Xatirə Kitabı”nın xüsusi buraxılışının təqdimatı olub

**Ermənilər tərəfindən xalqımıza qarşı dəfələrlə qanlı cinayətlər törədilib. Ermənistanın əsassız ərazi iddiaları, torpaqlarımızın işğal edilməsi soydaşlarımızın doğma ata-baba torpaqlarından didərgin düşməsinə səbəb olub. Rəsmi sənədlərə əsasən, Dağlıq Qarabağda elan olunmamış müharibə nəticəsində 3 mindən çox soydaşımız itkin düşüb, əsir və girov götürülüb.**





AZƏRTAC xəbər verir ki, bu barədə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev “Azərbaycan Respublikası Xatirə Kitabı”nın xüsusi buraxılışının təqdimat mərasimində danışıb.

“Əsir və girov götürülmüş vətəndaşlarımıza ermənilər tərəfindən insanlıqla bir araya sığmayan işgəncələr verilib, görünməmiş vəhşiliklər törədilib. Bu insanların xatirəsinin əbədiləşdirilməsi və beynəlxalq ictimaiyyət üçün mühüm tarixi sənəd funksiyasını yerinə yetirəcək faktlara istinadla nəşrlərin hazırlanması məqsədilə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Respublika Xatirə Kitabı redaksiyası fəaliyyətə başlayıb. Ötən müddətdə İkinci Dünya müharibəsində həlak olmuş azərbaycanlılar, 20 Yanvar və Xocalı faciəsində, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, milli qəhrəmanlarımız haqqında çoxcildlik ensiklopediya hazırlanıb. Xatirə kitabının 16 cildi çap olunub, 17-ci cildi nəşrə hazırlanır”, - deyə mədəniyyət nazirinin birinci müavini qeyd edib.

Kitabın əhəmiyyətini yüksək qiymətləndirən Vaqif Əliyev bildirib ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə Xatirə Kitabı dörd cildlik olmaqla xüsusi nəşrə hazırlanır. Həmin kitabın birinci cildinin təqdimat mərasimi keçirilir. Xüsusi buraxılışlarda Qarabağ münaqişəsi zamanı itkin düşmüş, əsir və girov götürülmüş 3 mindən çox vətəndaşımız haqqında Azərbaycan və ingilis dillərində ensiklopedik məlumatlar yer alacaq. Birinci cilddə 921 nəfər barədə məlumatlar əksini tapıb.

Azərbaycanın ərazi bütövlüyünə təcavüz edən erməni daşnaklarının azərbaycanlılara qarşı törətdiyi cinayətlərin həmişə öz xüsusi amansızlığı ilə seçildiyini diqqətə çatdıran kitabın baş redaktoru Nəzakət Məmmədova deyib: “Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə birlikdə aparılan araşdırmalar zamanı erməni vandallarının soydaşlarımıza qarşı törətdiyi cinayətlər, ağır işgəncələr və məqsədyönlü şəkildə aparılan soyqırımı siyasəti bütün detalları ilə araşdırılıb. Erməni millətçilərinin əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı törətdiyi cinayətlərin dünya ictimaiyyətinə çatdırılması hər birimizin mənəvi borcudur. Məhz bu məqsədlə hazırladığımız 3 min 875 nəfərin taleyindən bəhs edən Respublika Xatirə Kitabının dörd cildlik xüsusi buraxılışının birinci cildi oxuculara təqdim olunur”.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu rəhbərinin müavini Eldar Səmədov çıxış edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaratdığı humanitar problem, əsir düşmüş və girov götürülmüş insanlarla bağlı məlumat verib. O bildirib ki, kitabın nəşrə hazırlanması zamanı itkin düşmüş şəxslərin siyahısının dəqiqləşdirilməsi komissiya sədrinin şəxsi nəzarəti ilə aparılıb. Kitab vətən torpaqları uğrunda həlak olmuş, itkin düşmüş insanların xatirəsinə dövlət başçısı tərəfindən göstərilən diqqətin bariz nümunəsidir. Bugünə olan məlumata əsasən, Dövlət Komissiyasında 3 min 888 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdan keçib.

Yeni nəşrin ölkəmizin ictimai-siyasi və mədəni həyatında xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev Xatirə kitabı redaksiyasının çox nəcib və müqəddəs bir missiyanı yerinə yetirdiyini söyləyib.

Redaksiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində həlak olmuş, itkin düşmüş və girov götürülmüş vətəndaşlarımızla bağlı materialların toplanıb dərc edilməsi ilə bağlı böyük missiyanı üzərinə götürdüyünü qeyd edən Ə.Mehdiyev deyib: “Bu, olduqca vacib və əhəmiyyətli işdir. Azərbaycan torpaqlarının erməni silahlı birləşmələri tərəfindən işğal edilməsi bizim ən ağrılı problemimizdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin bütün fəaliyyəti bu problemin həllinə yönəlib. Burada həm maddi ziyan, həm mənəvi məhrumiyyətlər, bütün itkilər ən vacib məsələlər kimi gündəlikdə dayanır, bütün qüvvələrimiz bu məsələlərin həlli istiqamətində səfərbər olunub. Dövlətimiz bu gün ordu quruculuğuna, münaqişə ilə bağlı meydana çıxan problemlərin həllinə böyük diqqət göstərir. Dövlət başçısının diqqət və qayğısı nəticəsində şəhid ailələri və müharibə əlilləri yeni mənzillərlə təmin edilir. İndiyədək bu kateqoriyadan olan insanlara 5 min 500-dən çox fərdi ev və mənzil paylanılıb, ilin sonunadək də təxminən 500 mənzilin verilməsi nəzərdə tutulur”.

Ə.Mehdiyev vurğulayıb ki, ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə başlanmış bu işlər ümummilli liderin siyasi kursunun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentin tapşırığına əsasən, son 15 ildə şəhid ailələrinə və müharibə əlillərinə 6 minə yaxın minik avtomobili verilib, onlar hərtərəfli qayğı ilə əhatə olunub.

“Xatirə kitabının nəşr edilməsi dövlət başçısının bu məsələlərə daha bir qayğısı kimi qiymətləndirilməlidir. Bu, ilk nəşrdir ki, Qarabağ münaqişəsi dövründə itkin düşmüş, həlak olmuş insanlar haqqında məlumatları ictimaiyyətə çatdırır. Belə bir nəşrin ərsəyə gəlməsi bizim həm mənəvi borcumuzdur, həm də şəhidlərimizin və itkin düşmüş vətəndaşlarımızın xatirəsinə ehtiramın ifadəsidir. Kitabın digər mühüm əhəmiyyəti ondadır ki, burada hər bir insan haqqında toplanmış məlumatlar gələcək tədqiqatlar üçün baza yaradır. Nəşrdə yer alan məlumatlar hər hansı əsərin və filmin mövzusu ola bilər” deyən Ə.Mehdiyev kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova, əməkdar elm xadimi Qəzənfər Paşayev və başqaları kitabla bağlı fikirlərini bölüşüb, yeni nəşrin əhəmiyyətini vurğulayıblar.

Çıxış edənlər Xatirə kitabının nəşrinə göstərdiyi böyük diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

## Gülxar Həsənova - 100

**Azərbaycan Prezidenti İlham Əliyevin 15 avqust 2018-ci il tarixli sərəncamına əsasən görkəmli opera müğənnisi, xalq artisti Gülxar Həsənovanın 100 illik yubileyi ölkəmizin mədəniyyət və incəsənət müəssisələrində, elm ocaqlarında təntənə ilə qeyd edilir. Milli opera sənətimizin inkişafında böyük xidmətləri olmuş Gülxar xanımın yaradıcılıq yoluna yenidən nəzər salınır, həyatının maraqlı məqamları yad edilir.**



# Səhnəmizin Ərəbzəngisi

Xalq artisti Gülxar Həsənova 1942-ci ildən 1980-ci ilədək Azərbaycan Opera və Balet Teatrının solisti olmuşdur. Azərbaycan operasının şah əsərlərində təbiiliyi, dolğunluğu və özünəməxsusluğu ilə seçilən obrazlar yaratmış, uzun illər ərzində aparıcı, solo partiyalardakı yaddaqalan ifaçılığı ilə tariximizə yeni səhifələr yazmışdır. Sərəncamda qeyd olunduğu kimi, “Gənc opera solistlərinin hazırlanmasında onun təqdirəlayiq xidmətləri var. Yüksək səhnə mədəniyyətinə malik sənətkar muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı kimi musiqisevərlərin qəlbində dərin izlər buraxıb”.

Gülxar xanım 1918-ci il dekabrın 10-da Şəmkir rayonunun Bayramlı kəndində bəy ailəsində anadan olub. Atası İbrahim ağa Bayramlının sayılan mülkədarlarından olub, Xınna dərəsində torpaq sahəsi, Kürqırağı ormanlarda, Ceyrançöldə qoyun-quzu sürüləri, mal-qara ilxıları, kənddə dəyirmanı və s. var idi. Anası Nabat xanım tanınmış bəy nəslindən olub. O, Peterburqda, Nikolay hökuməti yanında xüsusi yeri olmuş, Azərbaycanda ən böyük torpaq ərazisinə malik məşhur mülkədar, çar II Nikolayın yaxın dostu Allahyar bəy Zülqədərovun bacısı Şeyda xanımın nəvəsi idi. Gülxar xanımgil ailədə iki bacı, üç qardaş olublar. Böyükxanım, Gülxar, Həmid, Nazim və Səlim.

1920-ci ilin aprelində Azərbaycan XI ordu tərəfindən işğal olunana kimi bu uşaqlara xüsusi dayələr baxıb və ev müəllimlərindən dərs alıblar. Balaca Gülxar yeddi yaşında, yəni məktəbə getməzdən əvvəl sərbəst oxumağı və yazmağı bacarırdı. Buna görə o, kənddəki yeddillik məktəbin birbaşa ikinci sinfinə qəbul edilib.

Yeni quruluşun məmurları bəylərə, xanlara, ağalara qarşı repressiyalara başlayanda Gülxar xanımın atası İbrahim ağaya “kulaksan” deyə var-dövlətinə sahib çıxırlar. Bundan sonra NKVD-nin silahlı ordusu İbrahim ağanı həbs etmək üçün Bayramlıya yeridiləndə kənd camaatı hamı bir nəfər kimi ayağa qalxır, onu həbs etməyə gələn silahlı əsgərlərin qarşısını kəsir: “O, bu kəndin pis günlərinin sahibi, ölümüzün-dirimizin yiyəsi olub, xeyirimizi-şərimizi o, yola verib. Biz kəndlilər ondan narazı deyilik, onun həbs edilməsinə razı olmarıq”, - deyərək İbrahim ağanı ələ vermirlər. Bundan sonra bolşevik məmurları qarşısında böyük qardaşı, məşhur inqilabçı Həmid Sultanovun da xidmətləri nəzərə alınmaqla İbrahim ağa repressiyadan azad olunur və Zəyəm dəmir yolu poçtuna rəis təyin edilir.

Yeddiillik məktəbi əla qiymətlərlə bitirən Gülxarı valideynləri gələcəkdə həkim görmək istəyirdilər. Həm bu, həm də yeni quruluşun özbaşınalığına tuş gəlməmək arzusu ilə onu Bakıya, xalasıgilə gətirirlər. Gülxar imtahanlardan yüksək qiymət alaraq böyük üstünlüklə tibb texnikumuna qəbul olunur. Bu zaman 14-15 yaşlı Gülxarın musiqiyə olan istəyi, həvəsi bir an da olsun onu tərk etmir. Qəlbinin istəyi ilə texnikumun nəzdində, habelə Əli Bayramov adına Qadınlar Klubunda özfəaliyyət dərnəyinə üzv yazılır. Burada dövrünün məşhur tarzənlərindən Məmmədxan Bakıxanovun “Qızlar ansamblı”na dəvət alır. Nəfəsli alətlərin ifaçılığı ilə yanaşı, yaxşı səsi olduğu üçün xalq mahnıları da oxuyur, dram dərnəyində müxtəlif rollar oynayırdı.

Gülxar tibb texnikumunu uğurla bitirdikdən sonra N.Nərimanov adına Tibb İnstitutuna qəbul olunur, ancaq onun bu sevinci uzun çəkmir. Respublikanı başına götürən repressiya dalğası onun da həyatında silinməz izlər qoyur. Cəmi üç ay oxuduqdan sonra “xalq düşməni”nin ailə üzvü kimi onu institutdan xaric edirlər. Səbəbi də o idi ki, Həmid Sultanov və onun həyat yoldaşı Ayna Sultanova “xalq düşməni” kimi həbs edilmişdilər. Gülxarın qardaşlarını və atasını işdən qovmuşdular. Beləliklə, ailə böyük məhrumiyyətlərlə üz-üzə qalmışdı.

Qızının gələcək taleyindən narahat olan İbrahim ağa gizli şəkildə kənddən ona başqa bir doğum şəhadətnaməsi yazdırıb Bakıya göndərir. Bu doğum şəhadətnaməsində ata babasının adı ona soyad kimi yazılır.

Gülxarın təhsilini davam etdirmək arzusu, sənətə olan həvəsi bu dəfə onu Bakı Teatr Texnikumuna (1935) gətirir. Burada da nümunəvi tələbə və dərs əlaçısı kimi tanınır. Texnikumda təhsil ala-ala Gənc Tamaşaçılar Teatrında (1936) işə düzəlir. Az sonra Üzeyir bəyin təkidi ilə Opera Teatrına köçürülür.

Gülxar xanım 1942-ci ildən 1980-ci ilədək Azərbaycan Opera və Balet Teatrının solisti kimi çıxış edir. Bu zaman gənc Gülxar xanımın poeziyaya, şeirə, şairliyə olan duyğuları da bəyan olur. Yazdığı şeirlərin ilk oxucusu o vaxt İsmayıl Şıxlı ilə Azərbaycan Pedaqoji İnstitutunun (indi Tusu adına ADPU) Filologiya fakültəsində bir qrupda oxuyan qardaşı, tələbə-şair Nazim Sultan olardı.

Gülxar xanım işinin çox, vaxtının az olmasına baxmayaraq, yenidən qəbul imtahanlarına hazırlaşır. 1953-cü ildə imtahanlardan müvəffəq qiymətlər alaraq üçüncü dəfə tələbə adını qazanır. 1959-cu ildə Azərbaycan Dövlət Universitetinin (indi BDU) Filologiya fakültəsini uğurla bitirir. 1980-ci ildən isə Gənc Tamaşaçılar Teatrının məşqçi-pedaqoqu kimi çalışır. Bununla yanaşı, “Leyli və Məcnun”da Leyli və Leylinin anası, “Əsli və Kərəm”də Əsli, “Koroğlu”da xanəndə qız, “Aşıq Qərib”də Şahsənəm, “Şah İsmayıl”da Ərəbzəngi, “Bahadur və Sona”da Təravət xanım, “Arşın mal alan”da Telli, “Vaqif”də Qarı, “Gəlin qayası”nda Ana kimi yaddaqalan obrazlar yaradır. Mütəxəssislər etiraf edirlər ki, Gülxar xanım opera sənəti tarixində Azərbaycan qadınlarının simvolu olan bənzərsiz Ərəbzəngi obrazı ilə əbədiyaşarlıq qazanmışdır.

Şərqdə ilk opera yazan qadın-bəstəkar, xalq artisti Şəfiqə xanım Axundova mətbuata açıqlamalarında bildirir: “Bir dəfə tanınmış şəxsiyyətlərlə bərabər Üzeyir bəylə mən də “Şah İsmayıl” operasına tamaşa edirdik. Ərəbzəngini Gülxar oynayırdı. Böyük həvəslə baxırdıq. İnandırım sizi, zalda o qədər sakitlik var idi ki, elə bil salon boş idi. Tamaşadan sonra Üzeyir bəy başını bulayaraq dedi: “Bu qız Ərəbzəngini necə oynayırsa, mən yadımdan çıxarıram ki, bu, Gülxardır. Elə bilirəm ki, hansısa bir kişi müğənnidir. Halaldır ona”.

Böyük sənət eşqi ilə yaşayan Gülxar Həsənova soprano səs tembri ilə parlaq koloritli obrazlar yaratdı, muğam, xalq mahnı və təsniflərimizi xüsusi gözəlliklə ifa edərək milyonların rəğbətini qazandı. Gülxar Həsənova bu yaradıcılıq uğurları ilə öz məktəbini yaradaraq səhnəyə yeni qədəm qoyan neçə-neçə gəncə yol göstərib, onlardan öz bilik və bacarığını əsirgəməyib. Uzun illər Gülxar xanımla tərəf-müqabili olmuş xalq artisti Canəli Əkbərovun dediklərindən: “Sənətkar üçün vacib olan bir neçə amil var. Bunlardan ən başlıcası istedad, məsuliyyət və zəhmətdir. Bu keyfiyyətlər Gülxar xanımda üstünlük təşkil edirdi. Odur ki, o, nümunəvi bir sənətkar idi. Xoşbəxtəm ki, belə sənətkarla bir yerdə çalışmaq mənə də nəsib olub. M.Maqomayevin “Şah İsmayıl” operasında mən Şah İsmayıl, o isə Ərəbzəngi rolunda çıxış edirdik. Gülxar xanım bu obrazı o qədər canlı oynayırdı ki, bəzən mən səhnədə olduğumu unudub onun sənətinin sehrinə düşərək az qala tamaşaçıya çevrilirdim. Bu obraz ona çox yaraşırdı. Unudulmaz sənətkarımız Həqiqət Rzayevadan sonra Ərəbzəngi obrazının ən mahir ifaçısı məhz Gülxar Həsənova idi. İllər keçdikcə mən ona baxıb düşünürdüm, heyif ki, səhnəmizin Ərəbzəngisi qocalır. Görən, onu kim əvəz edəcək? Amma açığını deyim ki, doğrudan da, hələ ki, Gülxar xanımı xatırladan Ərəbzəngi yoxdur.

Onun bütün keyfiyyətləri gözəl və səmimi idi. Sənət dostlarından, xüsusən də gənclərdən bilik və bacarığını əsirgəməzdi. Gülxar Həsənova lazım gəldikdə gənc ifaçılarla hətta evində məşğul olurdu. Bunu sənətimizin inkişafı naminə edirdi. Odur ki, Gülxar Həsənova bu gün yaddaşlarda mahir bir sənətkar və gözəl insan kimi qalıb”.

Bəli, Gülxar Həsənova daim xatırlanacaq. Çünki onun sənəti bugünkü nəsil üçün də örnəkdir. O öz səsi və ifaçılıq xüsusiyyətləri ilə həm zamanında, həm də bu gün qiymətləndirilir. Sənətdə öz dəstxəttini qoymuş Gülxar xanım Həsənova həmişə dövlətin diqqətində olub. 1954-cü ildə əməkdar artist, 1982-ci ildə xalq artisti fəxri adlarına, “Şöhrət” və “Şərəf nişanı” ordenlərinə, fəxri fərman və digər mükafatlara layiq görülüb.

Azərbaycan teatr tarixində yaddaqalan obrazlarla həmişə tamaşaçıların diqqətində olan tanınmış aktyor Hamlet Qurbanov da anasının sənət yolunu davam etdirərək milli teatr sənətinin inkişafına öz töhfəsini vermişdir. Müasir gənclik hələ uzun illər hər iki sənətkarın yaradıcılığından bəhrələnəcəkdir. Böyük sənətkar, Azərbaycanın Ərəbzəngisi kimi tarixin yaddaşına həkk olunan Gülxar xanım Həsənova 2005-ci il martın 31-də 87 yaşında dünyasını dəyişib. Azərbaycan xalqı bu gözəl sənətkarı daim ehtiramla xatırlayır və yad edir.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

## “Bakı Metropoliteni” QSC struktur bölmələrində paslanmayan metaldan müxtəlif təyinatlı metal konstruksiyaların (qapı, pəncərə və s.) hazırlanması, quraşdırılması və digər işlərin satın alınması üzrə

*açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Zakir Hacıyev, telefon: 490-00-91) ala bilərlər.

LOT-1. “Bakı Metropoliteni” QSC struktur bölmələrində paslanmayan metaldan müxtəlif təyinatlı metal konstruksiyaların (qapı, pəncərə və s.) hazırlanması, quraşdırılması və digər işlərin satın alınması

**İştirak haqqı - 200 manat**
**Hesabın adı: “BAKI METROPOLİTENİ” QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏRTÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 yanvar 2019-cu il saat 18:00-a qədər,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **16 yanvar 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına “İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17 yanvar 2019-cu il saat 15:30-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Qazaxıstanda keçirilən yarmarkada təmsil olunub







**Qazaxıstanın paytaxtı Astanada Yeni il qabağı ənənəvi xeyriyyə sərgisi və yarmarkası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Qazaxıstanda Akkreditə Olunmuş Diplomatik Korpus Rəhbərlərinin Xanımları Klubunun təşəbbüsü və səfirliklərin təşkilatçılığı ilə hər il keçirilən yarmarkada Azərbaycanın Qazaxıstandakı səfirliyi də iştirak edib. Bu il 50 ölkənin səfirliyinin qatıldığı sərgi və yarmarkada diplomatik nümayəndəliklərin, diaspor və qeyri-hökumət təşkilatlarının, yerli və xarici şirkətlərin təmsilçiləri iştirak ediblər. Yarmarkanın əsas məqsədi satışdan əldə olunan vəsaitin xeyriyyə layihələrinə sərf olunmasıdır.

Xeyriyyə yarmarkasında Azərbaycandan gətirilən məhsullar, milli mətbəximizin ləziz xörəkləri və şirniyyatları, müxtəlif növ çay məhsulları nümayiş olunub. Azərbaycan şərabları, nar şirəsi və digər məhsullarımız ən çox satılanlar sırasında idi.

Azərbaycan stendində həmçinin xalçalarımız, şallar, kəlağayılar da nümayiş olunub.

Xeyriyyə tədbirinə qatılan bəzi ölkələr öz mədəni proqramları ilə çıxış ediblər.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 4-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin səhra köməkçiləri Mixail Olaru, Genadi Petrika və Martin Şuster aparacaqlar.

## BİLDİRİŞ

### Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycan Respublikasında fəaliyyət göstərən maliyyə institutlarının rəhbərləri və digər mühüm vəzifə sahibləri üçün Avropa Direktivlərinə uyğun peşə tələblərinin və onların ölçülməsi alətləri barədə tövsiyələrin hazırlanması məqsədilə

*kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanına (əlaqələndirici şəxs: Rüstəm Kərimov, telefon: 012 493-50-58/285: Faks: 012 498-12-14) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 7 dekabr 2018-ci il saat 15:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər.

Xidmətin müddəti - 3 ay.

Hər bir malgöndərən tərəfindən xidmət göstərilməsinə dair qrafik təqdim olunmalıdır.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır. Kotirovka təklifləri Bakı şəhəri, Bülbül prospekti, 27 nömrəli ünvanda, palatanın inzibati binasında 10 dekabr 2018-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Dövlət Turizm Agentliyi tərəfindən agentliyin aparatı üçün ofis mebellərinin satın alınması üzrə 14 noyabr 2018-ci il tarixdə elan edilmiş kotirovka sorğusu üzrə komissiyanın 28.11.2018-ci il tarixli yekun protokoluna əsasən “Zivella Mobilya İnşaat Sanayi Ticaret Limited” şirkətininin Azərbaycan Respublikasındakı nümayəndəliyi qalib elan olunmuş və 29.11.2018-ci il tarixdə şirkətlə müqavilə imzalanmışdır.

**Əlaqələndirici şəxs: Vüsalə Əliyeva**
**Əlaqə üçün telefon: 012 492 87 13**

***Tender komissiyası***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universiteti 2018-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya, elmlər doktoru hazırlığı üzrə dissertanturaya qəbul

## ELAN EDİR

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | |
| | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | |
| | | | Büdcə hesabına | | Ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla | | Büdcə hesabına | | ödənişli əsaslarla | | | Büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 1211.01 | Diferensial tənliklər | 1 | 1 | | | | | | | | | | | | | | |
| 2211.01 | Bərk cisimlər fizikası | 1 | | 1 | | | | | | | | | | | | | |
| 2301.01 | Analitik kimya | 1 | 1 | | | | | | | | | | | | | | |
| 2306.01 | Üzvi kimya | 1 | 1 | | | | | | | | | | | | | | |
| 5401.01 | İqtisadi coğrafiya | | | | | | | | | | | | | | 1 | | 1 |
| 5502.01 | Ümumi tarix | | | | | | | | | | | | | | 1 | 1 | |
| 5503.01 | Ölkələr tarixi | 1 | | | | 1 | | | | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | | | | | | | | | | | | | | 1 | | 1 |
| 5704.01 | Dil nəzəriyyəsi | | | | | | 1 | | 1 | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili | | | | | | | | | | | | | | 1 | | 1 |
| 5710.01 | Türk dilləri | 1 | | 1 | | | | | | | | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | | | 1 | | 1 | | | | | | | | |
| **5801.01** | **Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə)** | | | | | | | | | | | | | | | | |
| 5801.01 | İnformatikanın tədrisi metodikası | 1 | 1 | | | | | | | | | | | | | | |
| 5801.01 | Azərbaycan dilinin tədrisi metodikası | 1 | | | 1 | | | | | | | | | | | | |
| **5801.01** | **Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə)** | | | | | | | | | | | | | | | | |
| 5801.01 | İnformatikanın tədrisi metodikası | 1 | 1 | | | | | | | | | | | | | | |
| 5801.01 | Azərbaycan dilinin tədrisi metodikası | 1 | | | 1 | | | | | | | | | | | | |
| 5801.01 | Tarixin tədrisi metodikası | 1 | | | 1 | | | | | | | | | | | | |
| 5801.01 | Kimyanın tədrisi metodikası | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5801.01 | Musiqinin tədrisi metodikası | | | | | | 1 | | 1 | | | | | | | | |
| 5801.01 | Coğrafiyanın tədrisi metodikası | | | | | | 1 | | 1 | | | | | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 2 | 1 | 1 | | | | | | | | | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 4 | 1 | 1 | 1 | 1 | 2 | | 2 | | | | | | 3 | 1 | 2 |
| 5805.01 | Korreksiya pedaqogikası | 1 | | 1 | | | 2 | 1 | 1 | | | | | | | | |
| 6107.01 | Ümumi psixologiya | 1 | | | 1 | | | | | | | | | | | | |
| | Cəmi: | 18 | 6 | 6 | 4 | 2 | 9 | 2 | 7 | | | | | | 7 | 2 | 5 |

### *Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:*

- Rektorun adına ərizə;
- Kadrların şəxsi qeydiyyat vərəqi;
- Tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- İş yerindən xasiyyətnamə;
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi əsərlərin siyahısı (və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat);
- Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun (bakalavriat və magistratura təhsil səviyyələri üzrə diplomların surətləri və diploma əlavə) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
- "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (Elmlər doktoru proqramı üzrə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti.

Sənədlər 25 dekabr 2018-ci il tarixə qədər şənbə və bazar günlərindən başqa hər gün saat 09:00-dan 17:00-a kimi ADPU-da qəbul edilir.

Qəbul imtahanları 7-21 yanvar 2019-cu il tarixlərdə keçiriləcəkdir.

**Əlaqə tel:** (+99412) 493-05-85, 465-81-53

**Ünvan:** AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 68, ADPU, otaq 210

http://adpu.edu.az/

***Rektorluq***

# Zeynal Vəfa ömrü

Oxucu onu çoxdan tanıyır, şeirlərini, publisistik yazılarını həmişə rəğbətlə qarşılayır. Bizsə onunla uzun illərdir çiyin-çiyinə "Azərbaycan" qəzetinin redaksiyasında çalışırıq, mənalı ömrünün 80-ci ilini tamamlamış ağsaqqal qələm sahibi ilə iş yoldaşıyıq.



Söhbət qəzetimizin baş redaktorunun müavini, tanınmış şair-jurnalist Zeynal Vəfadan gedir. Zeynal müəllimin ömür kitabını vərəqlədikcə onun həyatın dolanbac yolunda bir-birindən ağır sınaqlarından çıxdığını görməmək mümkün deyil. Hələ körpə yaşında ilk ağır zərbə aldı - İkinci Dünya müharibəsində atasını itirdi, ana nəvazişi ilə ayaq üstə qala bildi. Ağlı kəsəndən sonra ata həsrəti içində qovruldu, amma ilk mətbu şeirini ona həsr etməkdən başqa çarəsi olmadı. Elə o vaxtdan bəri müharibəyə nifrət, ana-bacıları ağlar qoyanlara lənət, sülhsevərliyin təbliği, ümumiyyətlə, hər cür ədalətsizliyin ifşası Zeynal Vəfa yaradıcılığında dərin kök salıb.

Hər gecənin bir gündüzü var. Zeynal müəllim ayaq üstə möhkəm durdu, qarşısına çıxan çətinlikləri dəf edib işıqlı günlərə doğru inamla irəlilədi. Universitet təhsili alıb mətbuat sahəsində fəaliyyətə başladı. İlk addımlarını Naxçıvanda çıxan "Şərq qapısı " qəzetində atdı, sonra muxtar respublikanın televiziyasında çalışdı. Ardınca Azərbaycan milli televiziyasında, sonra müxtəlif qəzetlərdə fəaliyyət göstərdi. Artıq 25 ildir "Azərbaycan" qəzeti baş redaktorunun müavini kimi məsul vəzifə tutur. İstər bədii yaradıcılığı, istərsə də ictimai publisistikası həmişə maraqla qarşılanır.

Zeynal müəllimin xüsusilə milli azadlıq hərəkatına qələm sahibi kimi verdiyi töhfə təqdirəlayiqdir. Daim günün nəbzini tutub, ilk növbədə cəmiyyəti narahat edən aktual məsələlərə diqqət yetirib. İnsanın yaşadığı hər hansı ağrı-acıya biganə qala bilməyib, qələmi ilə bəşər övladını incidənlərin iç üzünü açmağı özünə borc bilib. Qarabağ dərdini, Xocalı faciəsini, yüz minlərlə soydaşımızın yurd-yuvasından didərgin düşməsi, torpaqlarımızın düşmən tapdağı altında qalması Zeynal Vəfa poeziyasının və publisistikasının daimi mövzularıdır.

Şair Zeynal Vəfa müasir poeziyamıza layiqli töhfə vermişdir. Səkkiz kitabın müəllifidir. Qələmi yorulmaq bilmir, şeir və poemaları indi də qəzet və jurnallarda çap olunur, ədəbi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

Jurnalist Zeynal Vəfa milli mətbuatın inkişafı naminə xeyli əmək sərf etmişdir. Bu sahədə gördüyü işlər yetərincə qiymətini almışdır. Qələm dostumuz "Tərəqqi" medalı ilə təltif olunmuş, "Qızıl qələm" mükafatına və "Əməkdar jurnalist" fəxri adına layiq görülmüsdür.

Zeynal Vəfa həm də gözəl ailə başçısıdır. Tək balası Azər onun şah əsəridir. Mahir ifası ilə musiqisevərlərin qəlbində taxt qurmuş milli opera sənətinin ulduzu, xalq artisti, professor Azər Zeynalov musiqiçi kadrlar yetişdirməklə yanaşı, mədəniyyətimizin dünyada təbliği naminə əlindən gələni əsirgəmir, möhtəşəm səsi tez-tez dünyanın müxtəlif ölkələrinin səhnələrində səslənir.

Ömrünün bu çağında Zeynal müəllim qələmi yerə qoymaq barədə düşünmür, yenə də yazıb yaradır. Şeirlərinin ilk oxucuları elə biz özümüz, iş yoldaşlarıyıq. Özü də Zeynal müəllimin şeir oxuması ayrı aləmdir.

Ağsaqqal həmkarımızın 80 yaşını ürəkdən təbrik edir, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq. Qələmin iti olsun, qardaş!

***"Azərbaycan"***

## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Pirallahı Sənaye Parkının 30 hektar ərazisinin mühəndis xətləri və avtomobil yolları (texniki su, su anbarı və nasosxanalar, avtomobil yolları, məişət tullantı suyu xətti, yağış suyu xətti, yanğına qarşı su xətti, içməli su xətti) üzrə tikinti işlərinin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "Azsənayetikintilayihə" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

### Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri idarəsi uşaq bağçalarına lazım olan tibbi ləvazimatların kotirovka üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şəxslər 492-63-90 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Satınalma prosedurunda iştirak etmək üçün sənədlər 06.12.2018-ci il tarixinə qədər qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

### Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası hədiyyələrin və suvenirlərin satın alınması məqsədilə *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr., 27 ünvanına (əlaqələndirici şəxs: Rüstəm Kərimov, telefon: +99412 493-50-58/285: Faks: +99412 498-12-14) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 6 dekabr 2018-ci il saat 15:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır. Kotirovka təklifləri Bakı şəhəri, Bülbül pr., 27 nömrəli ünvanda, palatanın inzibati binasında 07 dekabr 2018-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

**Xidmətin qrafiki aşağıdakı kimidir:**

➢ Satınalma müqaviləsi bağlandığı tarixdən sonra 3 (üç) iş günü ərzində mallar tam həcmdə sifarişçinin ünvanına çatdırılmalıdır.

***Tender komissiyası***




## Sinoptiklər xəbərdarlıq edirlər...

Sinoptiklər ölkə ərazisində gözlənilən yağıntılı hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Bakıda və Abşeron yarımadasında dekabrın 4-də arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində yağışın intensiv olacağı ehtimalı var.

Dekabrın 5-i axşamdan 6-sı gündüzədək bəzi rayonlarda arabir yağış yağacağı proqnozlaşdırılır. Yağışın ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı bildirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası
**MƏHƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri deputat Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, İqbal Məmmədov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov və Milli Məclis Aparatının əməkdaşları Vilayət Əlizadə, Zahid Abbasov, İsa Hüseynov, Məhəmməd Gülməmmədov Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitəsinin üzvləri Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin İşlər İdarəsinin kollektivi iş yoldaşları Tural Hacıyevə dayısı
**ELŞAD QULİYEVIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabrandan Novruz Novruzov Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyasının İcra katibliyi YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, komitə sədrinin müavini Rauf Əliyev və komitənin üzvləri Musa Quliyev, Jalə Əliyeva, Yaqub Mahmudov, Aytən Mustafazadə, Rafiq Məmmədhəsənov, Elmira Axundova, Sevinc Hüseynova, Araz Əlizadə, İlham Məmmədov və Milli Məclis Aparatının əməkdaşları Aytac Mehdiyeva, Elşən Cəfərov, Nicat Xəlilov Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası
**MƏHƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ənvər Seyidov ailəsi ilə birlikdə Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Göyçaydan Mehdi Səlimzadə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası
**MƏHƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyasət Alıyev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası
**MƏHƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin kollektivi məhkəmənin sabiq hakimi
**TURQAY HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Razim Məmmədov və Xətai Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Ələsgər Əliyevə qardaşı
**HƏSƏNALININ**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8412
Sifariş 3618